Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

3 MART 2020-ci il

№ 38 (4169)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# RUSİYA MEDİASINDA KÖHNƏ TƏCRÜBƏLƏRƏ SÖYKƏNƏN YENİ TREND - PUTİNLƏ ƏRDOĞANI İLHAM ƏLİYEV YENİDƏN YAXINLAŞDIRA BİLƏR...

■ səh. 8 ■

Bakı-Ankara-Moskva üçbucağında yeni vəziyyət, İrəvanda daha bir xof və "bu ilin ikinci yarısında Qarabağ azad edilə bilər" qənaəti...

■ səh. 9 ■

Azərbaycan Ordusunda ilk - NATO ölkəsinin döyüş-təlim təyyarələri Ermənistanı narahat edən faktor kimi...

■ səh. 5 ■

İntensiv önləyici tədbirlər Azərbaycanın virus fəsadlarından tam yan keçəcəyinə böyük təminat yaradır - ictimai rəy...

■ səh. 4 ■

Putinlə Ərdoğanın tarixdə ən çətin Rusiya-Türkiyə müzakirəsi - arxada müharibələr tarixi, qarşıda qeyri-müəyyən İdlib problemi...

■ səh. 10 ■

Rusiya - Türkiyə gərginliyindən Ermənistanı gözləyən fəlakətlər - düşmən ölkədə sevincək olanların korafəhmliyi...

■ səh. 10 ■

Ermənistanın azərbaycanlılara qarşı soyqırımlar tarixi

■ səh. 11 ■

Problemli kreditlərdə artım yenə baş qaldırıb - bir ayda 3 faiz...

■ səh. 15 ■




■ səh. 3 ■

## Azərbaycan 100 il özünün də, başqalarının da enerji təhlükəsizliyini təmin edə bilər, bəs başqa dövlətlər nə etməlidir - İlham Əliyevin böyük mesajından çıxan əsas sual...



Ermənistanda Azərbaycan-Türkiyə qardaşlığına qarşı yeni oyun - «Artsaxın əvəzində Naxçıvan»...

■ səh. 8 ■



Virusa görə Çin və İrandan idxalın azalması Azərbaycan bazarında fəsad törədə bilmədi - yerli istehsalımızın gücü və 2 milyardlıq idxalın cəmi 45 milyonu...

■ səh. 12 ■

Azərbaycan Ukrayna və Belarusda erməni lobbisinin bütün səylərini məhv etdi - iqtisadi gücümüz əsas faktor rolunda...

■ səh. 6 ■

■ səh. 3 ■

Azərbaycan DİN-ə qarşı öyrədilmiş qadınların əli ilə saxta qaralayıcı aksiya...



■ səh. 4 ■

Hökumətin Azərbaycan xalqını virusdan qoruma tədbirləri beynəlxalq miqyasda da təqdir edilir...



■ səh. 13 ■

Dünya virusa görə kütləvi tədbirlərdən imtina edirsə, biz niyə düşünməyək...





■ səh. 7 ■

Hər qəlb içindəki çiçəyin ətrini verir...



■ səh. 14 ■

Xətainin Bakıdakı heykəlinin köhnə və yeni məkanları - o yerdə ki, kütləvi ziyarət üçün imkan yoxdur...





## Polşanın Azərbaycandakı yeni səfiri Prezident Əliyevə söz verdi - "...əlimdən gələn hər şeyi edəcəyəm..."

**Prezident İlham Əliyev martın 2-də Polşa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Rafal Poborskinin etimadnaməsini qəbul edib.**

Fəxri qarovul dəstəsinin qarşısından keçən səfir minnətdarlıq edib və etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Prezident İlham Əliyev deyib:

- Xoş gəlmisiniz, cənab səfir, sizi görməyə çox şadam. Azərbaycandakı fəaliyyətinizdə sizə uğurlar arzulayıram. Əminəm ki, sizin görəcəyiniz çox işlər var. Çünki ölkələrimiz arasında münasibətlər inkişaf edir və biz çox güclü siyasi əlaqələr yaratmışıq. Mən məmnunluqla ölkənizə rəsmi səfərimi və Prezident Dudanın Azərbaycana səfərini xatırlayıram. Biz ikitərəfli əməkdaşlığımızla bağlı çoxşaxəli məsələləri müzakirə etmişik. Bu ilin yanvarında biz Davosda görüşümüz zamanı tərəfdaşlığımızın strateji əhəmiyyətini bir daha təsdiqlədik. Bizim üçün Polşa çox vacib tərəfdaş və dost ölkədir. Uzun illər ərzində ölkələrimiz arasında sıx dostluq münasibətləri inkişaf etmişdir. Ötən illər ərzində çoxsaylı təmaslarımız olub. Şadam ki, hazırda biz təkcə siyasi sahədə deyil, iqtisadi sahədə də inkişafı görürük. Bildiyiniz kimi, bizim Mərkəzi Avropa üzrə regional ticarət nümayəndəliyimiz Polşada yerləşir. Bu fakt onu göstərir ki, dünyanın bu regionunda sizin ölkənizi əsas ticarət tərəfdaşımız hesab edirik. Əminəm ki, qarşıdakı illərdə bizim əlaqələrimiz inkişaf edəcək. Prezident Duda ilə birlikdə bu ilin yanvarında gələcək planlarımızı müzakirə etmişik. Mən Sizə uğurlar arzulayıram.

Səfir Rafal Poborski deyib ki, Ölkə başçısının ikitərəfli münasibətlər barədə söylədiklərindən sonra nəyisə əlavə etmək çətindir:"İcazə verin deyim ki, mən dostluq münasibətlərimizi gücləndirmək üçün Prezidentimiz tərəfindən buraya göndərilmişəm. Bilirəm ki, hər iki prezidentin bir-biri ilə çox yaxşı təmasları var. Siz çox tez-tez görüşürsüz. Bizim ikitərəfli münasibətlərimizin təməl aspektlərini çox yaxşı vurğulayırsınız. Mən Polşadakı həmkarlarımın köməyi ilə həm ikitərəfli siyasi dialoqumuzun inkişafına töhfə vermək, həm də iqtisadi münasibətləri inkişaf etdirmək üçün əlimdən gələn və mümkün olan hər şeyi etməyə çalışacağam. Hər iki ölkə region üçün çox əhəmiyyətlidir. Biz nəqliyyat qovşaqlarından faydalanmaq üçün çox yaxşı mövqedəyik. Biz çox böyük məmnuniyyətlə Sizin enerji siyasətinizdəki nailiyyətlərin şahidi olmuşuq. Bilirəm ki, bununla bağlı şirkətlərimiz arasında dialoq aparılır. Ümid edirik ki, bu, uğurlu layihələrlə nəticələnəcək, birlikdə hər iki tərəf faydalana biləcək. Əlbəttə, mədəni əlaqələrin və xalqlar arasında təmasların yaradılması sahəsində çox yaxşı perspektivlər mövcuddur. Ümid edirik ki, paytaxtlarımız arasında birbaşa uçuşlar açılacaq. Bu layihənin həyata keçməsi üçün də əlimdən gələni edəcəyəm".

Görüşdə enerji, nəqliyyat, kənd təsərrüfatı, mədəniyyət, turizm və digər sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

## Azərbaycan Ordusu genişmiqyaslı təlimlərə başladı



**Qoşunların 2020-ci tədris ilinin hazırlıq planına uyğun olaraq Azərbaycan Ordusu genişmiqyaslı komanda-qərargah təlimlərinə başlayıb.**

Müdafiə Nazirliyindən "Trend"ə verilən məlumata əsasən, martın 6-dək davam edəcək təlimlər informasiya texnologiyalarının geniş tətbiqi, həmçinin heyətlərin, vaxt göstəriciləri və qəbul edilən qərarların icrası planlarının yoxlanılmasının müvafiq idarəetmə orqanları ilə dəqiqləşdirilməsi ilə ərazi, xəritə və ərazinin maketi üzərində icra olunacaq.

# Prezident İlham Əliyev Şah İsmayıl Xətainin heykəlinin köçürüldüyü yeni parkda oldu



**Martın 2-də Prezident İlham Əliyev Şah İsmayıl Xətainin heykəlinin köçürüldüyü yeni salınmış parkda olub.**

Prezident İlham Əliyev Mərkəzi Neftçilər Xəstəxanasının yanında Şah İsmayıl Xətainin heykəlinin köçürüldüyü yeni salınmış parka gəlib, heykəlin önünə gül dəstəsi qoyub.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov burada görülən işlər barədə məlumat verib.

Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimli dövlət başçısına bu ərazidə yol-nəqliyyat infrastrukturu barədə məruzə edib. Prezident İlham Əliyev yeni yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı tapşırıq və göstərişlərini verib.

Qeyd edək ki, Xətainin heykəlinin yerinin dəyişdirilməsi paytaxtımızda yol-nəqliyyat infrastrukturuna mühüm töhfə olacaq. Belə ki, bu, Nizami küçəsi ilə Sabit Orucov, Mehdi Mehdizadə küçəsi ilə 28 May küçəsi istiqamətində yolları birləşdirən nəqliyyat qovşağının yaradılmasına şərait yaradır. Bu isə, öz növbəsində, bu ərazidə yarana biləcək tıxacların qarşısının alınmasına və nəqliyyat vasitələrinin hərəkətinin intensivliyinin təmin edilməsinə imkan verəcək.

# Düşmənin diversiya qrupu Qazaxda xeyli döyüş sursatını ataraq qaçdı





## Şəhidimiz var...

**Dövlət Sərhəd Xidməti və Azərbaycan Hərbi Prokurorluğu Qazaxda erməni hərbi birləşmələrinin təxribatı ilə bağlı məlumat yayıb.**

"Trend"ə daxil olan məlumatda bildirilir ki, son zamanlar Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən müxtəlif istiqamətlərdən atəşkəs rejiminin mütəmadi və kobud şəkildə davamlı olaraq pozulması halları intensivləşib.

2020-ci ilin 24 fevral tarixində saat 07:00 radələrində ER silahlı qüvvələrinin Noyemberyan rayonunun Koti kəndi yaxınlığında yerləşən bölmələrindən Qazax rayonunun Quşçu Ayrım kəndi istiqamətindəki Dövlət Sərhəd Xidmətinin sərhəd döyüş məntəqəsinə diversiya cəhdinin qarşısı alınıb, ciddi döyüş itkiləri vermiş düşmən geri çəkilməyə məcbur olub. Düşmənin diversiya qrupunun qumbaraatan və digər iriçaplı silahların tətbiqi ilə baş verən təxribatının qarşısı alınarkən sərhədçi əsgər Vəliyev İbrahim Ələmşah oğlu qəhrəmancasına şəhid olub. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədlərini qoruyan Dövlət Sərhəd Xidmətinin əsgərinin qətlə yetirilməsi cinayətdir və bu qanlı cinayətin məsuliyyəti Ermənistan tərəfinin üzərindədir.

Hadisənin baş verdiyi sərhəd döyüş məntəqəsinin yaxınlığında düşmənin silahlı basqın zamanı istifadə etdiyi və geri qaçdığı zaman ərazidə atmaq məcburiyyətində qaldığı PK markalı pulemyot üçün 100 güllələik lent, bir ədəd partlamamış RQ-42 əl qumbarası, 66 ədəd 7,62 mm-lik giliz, kəşfiyyat-diversiya qrupu üzvlərinin ərzaq çantası (içərisində konservlər, fərdi su ehtiyatı, çörək məmulatları) aşkar olunub.

Fakt üzrə Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.12, 29,120.2.4, 29,120.2.7 və 29,120.2.12-ci maddələri ilə cinayət işi başlanılaraq prosessual hərəkətlər həyata keçirilməklə düşmənin hərbi qulluqçularımızı qəsdən öldürmək və döyüş postumuzu ələ keçirmək məqsədilə hücuma keçərək təxribat törətməsi müəyyən olunub və hazırda zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Düşmənin silahlı təxribatının qarşısını alarkən fərqlənmiş sərhədçilər Dövlət Sərhəd Xidməti rəisinin əmrləri ilə medal, qiymətli hədiyyə və fəxri fərmanlarla təltif olunub. Qəhrəmancasına həlak olmuş əsgər Vəliyev İbrahim Ələmşah oğlu ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib.

Diversiya cəhdlərinin qarşısı qətiyyətlə alınan və bu cəhdlər zamanı ciddi döyüş itkiləri verən Ermənistan Silahlı Qüvvələrinin bölmələri təmas xəttində təxribat xarakterli əməllərini davam etdirir. 01 mart tarixində DSX-nin Sərhəd Qoşunlarının "Qazax" əlahiddə dərhəd diviziyasının Qazax rayonunun Xanlıqlar və Quşçu Ayrım kəndləri yaxınlığında yerləşən sərhəd döyüş məntəqələri iri çaplı silahlardan intensiv atəşə tutulub, cavab atəşi ilə düşmənin döyüş mövqeləri susdurulub.

Birgə açıqlamada o da bildirilir ki, Ermənistan tərəfinin təmas xəttində təxribat xarakterli bütün əməllərinin qarşısının alınması və törədilmiş hər bir cinayətə görə təqsiri olan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməklə cəzalandırılması üçün bütün zəruri tədbirlərin görülməsi təmin ediləcək.

# Azərbaycan 100 il özünün də, başqalarının da enerji təhlükəsizliyini təmin edə bilər, bəs başqa dövlətlər nə etməlidir - İlham Əliyevin böyük mesajından çıxan əsas sual...

**Azərbaycan özü və qonşuları üçün enerji təhlükəsizliyini təmin edən ölkədir. Bunu Prezident İlham Əliyev Bakıda, Heydər Əliyev Mərkəzində "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin VI toplantısında çıxışı zamanı deyib.**

*"Ona görə də aparıcı ölkələr işğalçı dövləti beynəlxalq öhdəlikləri yerinə yetirməyə məcbur etməlidirlər"*

Ölkə başçısının sözlərinə görə, bizim təsdiqlənmiş qaz ehtiyatlarımız 2,6 trilyon kubmetr, proqnozlaşdırılan ehtiyatlar 3 trilyon kubmetr civarındadır: "Azərbaycan 100 ildən çox müddət üçün karbohidrogen ehtiyatlarının etibarlı təchizatçısı olacaq. Bu gün ənənəvi tərəfdaşlarımızla - "Şahdəniz", "Azəri-Çıraq-Günəşli" konsorsiumlarına rəhbərlik edən və strateji tərəfdaşımız olan BP ilə "D 2030" adlandırılan layihə üzərində çalışırıq. Bu, 2018-ci ildə qüvvəyə minib. BP ilə birlikdə biz "Şəfəq- Asiman" qaz yatağı üzərində çalışırıq və ilk quyu çox tezliklə qazılmalıdır. Biz BP ilə, həmçinin, "Dayazsulu" adlandırılan layihə üzərində çalışırıq. Bu layihənin aşkar edilməyən yataqlar baxımından böyük potensialı var, çünki o, sahilə çox yaxın yerləşir və bizim ənənəvi hasilatımız dənizdə aparılırdı. Gələn il biz "Total"la 300 milyard kubmetr qaz potensialı olan "Abşeron" yatağından qaz hasilatına başlayacağıq. SOCAR fəal şəkildə "Ümid-Babək" yatağının işlənilməsi ilə məşğuldur".

Prezident İlham Əliyev onu da deyib ki, bunlar hamısı beynəlxalq bazarlarda iştirakımızın genişləndirilməsi, şaxələnmiş üsullarla karbohidrogen ehtiyatlarımızın ixracı və xalqımız üçün daha yaxşı şəraitin yaradılmasından ibarət olan strateji məqsədlərimizin həyata keçirilməsinə töhfə verəcək.

Göründüyü kimi, Azərbaycan dünyada enerji təchizatçısı rolunu uğurla həyata keçirir. Bununla bağlı nə mümkündürsə onu edir. O baxımdan bəs digər dövlətlər, beynəlxalq təşkilatlar Azərbaycanın 100 il özünün və başqalarının enerji təhlükəsizliyini təmin etməsi üçün nə etməlidirlər? Bu işə hansı töhfələr verə bilərlər?

***Elçin Mirzəbəyli:** "Ermənistanın apardığı işğalçılıq siyasəti region üçün bütün hallarda təhdid mənbəyidir"*




Məsələyə münasibət bildirən politoloq Elçin Mirzəbəyli buna bir neçə rakursdan yanaşdı: "Ümumilikdə, böyük dövlətlər, beynəlxalq təşkilatlar Azərbaycanın enerji siyasətini dəstəkləyirlər. Bunun nəticəsidir ki, bir sıra enerji layihələri həyata keçirildi. Enerji ilə bağlı keçirilən bir sıra böyük tədbirlərdə aparıcı dövlətlər, beynəlxalq təşkilatlar, böyük şirkətlər iştirak edirlər. Azərbaycanın ortaya qoyduğu layihələrə hərtərəfli dəstək verirlər. Bundan sonra da Azərbaycan region və dünya dövlətləri üçün etibarlı enerji təchizatçısı rolunda çıxış edəcək. Ancaq aparıcı dövlətlər, beynəlxalq təşkilatlar bu məsələdə regionda təhlükəsizliyin gücləndirilməsinə xüsusi önəm verməlidirlər. İqtisadi-siyasi dəstək öz yerində.

**Ancaq nəzərə almaq lazımdır ki, Ermənistanın apardığı işğalçılıq siyasəti region üçün bütün hallarda təhdid mənbəyidir. Ona görə də aparıcı ölkələr işğalçı dövləti beynəlxalq öhdəlikləri yerinə yetirməyə məcbur etməlidirlər. Hesab edirəm ki, bu təmin edilsə, o zaman bunun effekti daha böyük olacaq".**

***Vidadi ORDAHALLI***

# Azərbaycan DİN-ə qarşı öyrədilmiş qadınların əli ilə saxta qaralayıcı aksiya...

**Sosial şəbəkələrdə AXCP tərəfdarı olan bir qrup qadının aksiya zamanı təzyiqlə üzləşməsinə dair məlumatlar paylaşılır. Həmin xəbərlərə bir qadının polis tərəfindən döyüldüyünü əks etdirən fotolar da əlavə edilir. Daxili İşlər Nazirliyi tərəfindən yayılan rəsmi məlumatda isə həmin görüntünün montaj olunduğu bildirilir.**



Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən verilən məlumata görə, bu iddialar yalan və böhtan olmaqla yanaşı, həm də qərəzlidir: "Son günlər sosial şəbəkələrdəki bəzi səhifələrdə fevralın 28-də Daxili İşlər Nazirliyinin inzibati binası önündə bir qrup qadının aksiya keçirməyə cəhd göstərməsi zamanı onlardan birinə guya polis əməkdaşı tərəfindən üz nahiyəsinə xəsarət yetirilməsi barədə əsassız ittihamlar paylaşılır. Belə ki, AXCP tərəfindən aldadılaraq və istiqamətləndirilərək 10-15 qadın həmin gün razılaşdırılmamış, qanunsuz aksiyaya cəhd göstəriblər. Onlardan bəzilərinin azərbaycanlı xanıma xas olmayan tərzdə ictimai asayişi mühafizə edən polis əməkdaşlarının ünvanına təhqiramiz ifadələr işlətmələrinə və əxlaqdan kənar hərəkətlər etmələrinə baxmayaraq, polis əməkdaşları dözümlülük və təmkinlilik nümayiş etdirərək öz xidməti vəzifələrini yerinə yetiriblər. Bu zaman xəsarət alan və saxlanan olmayıb.

O ki qaldı sosial şəbəkələrdəki səhifələrdə paylaşılan, üzündə xəsarət olan qadının fotolarına, oradan açıq-aydın görünür ki, bu fotolar ya montaj edilib, ya da həmin qadının özünün bilərəkdən və məqsədli şəkildə çəkdiyi makiyajdan başqa bir şey deyil".

Göründüyü kimi, rəsmi məlumatda fotonun montaj edildiyi və ya qadının guya sifət nahiyəsinə xəsarət yetirildiyini sübut etmək üçün xüsusi makiyajdan istifadə etdiyi bildirilir. Polisi nüfuzdan salmaq üçün istifadə olunan bu yeni metodla bağlı ekspertlərin düşüncəsi necədir?

***Şəmsəddin Əliyev:** "Azərbaycan polisini nüfuzdan salmağa yönələn bu cür böhtanlarla bağlı həm də lazımi hüquqi ölçü götürülməlidir"*

Hüquqşünas Şəmsəddin Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, vətəndaşların təhlükəsizliyinin təmin olunduğu, ictimai asayişin gözəl qorunduğu bir ölkədə polisə atılan bu böhtan ayaq tutar, ancaq yerimæz: "Biz həmin aksiyanın gedişini izləmişik. O cümlədən, həmin hadisə ilə bağlı rəsmi bəyanat da verilib. Hər halda, rəsmi bəyanatın verilməsi konkret faktlara əsaslanır. Həmin ətrafda kifayət qədər müşahidə kamerası var. Hamısı araşdırıldıqdan sonra həmin münasibət açıqlanıb. Əgər hər hansı polisin əməlində qadını döymək aşkar olunardısa, onun barəsində dərhal tədbir görülərdi. Təbii ki, polis qanunsuz aksiyanın qarşısını almalıdır. Həmin vaxt qadınlar polisi provokasiyaya çəkiblər. Ancaq gəlin görək bizim polis necə davranıb? Mən bu cür hadisələri Avropa ilə müqayisə edirəm. Analoji vəziyyətlərdə aksiyaçıların üstünə at sürürlər, it salırlar, su şırnağından istifadə edirlər. Bizdə isə bunların heç biri olmursa, radikal dairələrin təsiri altında olan xanımlar gedib polisi bu üsulla şərləyib, sosial şəbəkələrdə paylaşırlar. Azərbaycan polisinin işi ilə bağlı biz vətəndaş məmnunluğunun hansı səviyyədə olduğunu bilirik. Bunu bəzi radikal dairələrin gözü götürmür.

Bu səbəbdən də polisin şərəfli adını ləkələmək, onların qanuni fəaliyyətinə kölgə salmaq yolunu tuturlar.

Aksiya zamanı həmin qadınlar əynində Azərbaycanın atributlarını gəzdirən polisə qarşı çox nalayiq hərəkətlərə yol verdilər. Bunun müqabilində polisin cavabı çox humanist olub. Polisə qarşı edilən bu haqsızlıqları kəskin şəkildə pisləyirik. Azərbaycan polisini nüfuzdan salmağa yönələn bu cür böhtanlarla bağlı həm də lazımi hüquqi ölçü götürülməlidir".

***Məhəmmədəli QƏRİBLİ***

# İntensiv önləyici tədbirlər Azərbaycanın virus fəsadlarından tam yan keçəcəyinə böyük təminat yaradır - ictimai rəy...

## *Operativ qərargah Azərbaycanda bütün təhsil müəssisələrində tədrisi müvəqqəti dayandırdı*

**Nazirlər Kabinetinin yanında operativ qərargahı bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılmasına və bununla bağlı bütün tədbirlərin təxirə salınmasına dair qərar qəbul edib.**



Qərargahdan baki-xeber.com-a daxil olan məlumata görə, koronavirus (COVİD - 19) infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə təxirəsalınmaz tədbirlər davam etdirilir. Yoluxma hallarının qarşısının alınması, bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi, ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlərin intensivləşdirilməsi məqsədilə 2020-ci ilin mart ayının 3-dən 9-dək (ilk tədris günü mart ayının 10-u müəyyən edilir) bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılmasına və bununla bağlı bütün tədbirlərin təxirə salınmasına dair qərar qəbul olunub. Bu müddət ərzində Təhsil Nazirliyinə və tabeliyində təhsil müəssisələri olan müvafiq icra hakimiyyəti orqanlarına bütün təhsil müəssisələrində tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlərin davam etdirilməsi tapşırılıb.

Operativ qərargahın mühüm fəaliyyət istiqamətlərindən biri daxil olan informasiyaların araşdırılmasından ibarətdir.

Belə ki, Nazirlər Kabineti yanında operativ qərargah koronavirus təhlükəsi ilə bağlı mətbuatda yayılan və vətəndaşların müraciəti ilə daxil olan bütün məlumatları ciddi araşdırır və operativ reaksiya verir.

Qərargahdan verilən məlumata görə, martın 1-də sosial şəbəkələrdə yayılmış və xüsusi geyimdə olan həkimlərin "İçəri-şəhər" metrostansiyası yaxınlığında görünməsini əks etdirən videomaterial vətəndaşlar tərəfindən verilmiş məlumat əsasında xəstəlik şübhəsi olan şəxsin nəzarət altına alınması zamanı çəkilib.

Koronavirus şübhəsi ilə müşahidə altına alınan və ya xəstəlik şübhəsi ilə Təcili Tibbi Yardıma müraciət edən istənilən şəxs olduğu yerdən məhz bu xüsusi geyimlərdə olan həkimlər tərəfindən xəstəxanaya aparılır: "Bu görüntülər şəhərdə yeni koronavirus xəstəsinin aşkar olunduğu demək deyil, profilaktik tədbirlərin tərkib hissəsidir. Ölkədə yeni koronavirus xəstəliyinə yoluxma faktı qeydə alınarsa, ictimaiyyət bu barədə məlumatlandırılacaq.

Qərargah bir daha vətəndaşlardan süni ajiotaj yaratmamağı və rəsmi mənbələrdən paylaşılan məlumatları izləməyi xahiş edir.

Qorxulu virus əleyhinə operativ qərargahın indiyə qədər həyata keçirdiyi tədbirlər bir çox ölkələri vahimədə saxlayan virus təhlükəsinin Azərbaycanda tam nəzarətə götürüldüyünü söyləməyə əsas verir. Bir tərəfdən səyyar yoxlama tədbirləri görülür, bir yandan ümumölkə miqyaslı qərarlar verilir (məktəblərin müvəqqəti bağlanması kimi), digər tərəfdən isə sosial şəbəkələrdə bəzi görüntülərin yanlış trendə çevrilməsi cəhdlərinin qarşısı alınır, eyni zamanda gigiyenik maarifləndirici görüntü və izahat materialları hazırlanaraq yayılır.

Şifahi sorğular əsasında vətəndaşlardan aldığımız ümumi qənaət budur ki, qabaqlayıcı dövlət tədbirləri məqbul sayılmaqla, ölkəmizin ümumən bu bəladan ciddi itkilər olmadan çıxacağına böyük ümidlər yaranır.

***Namiq QULİYEV***

# Hökumətin Azərbaycan xalqını virusdan qoruma tədbirləri beynəlxalq miqyasda da təqdir edilir...

## ***Adil Qeybulla:*** *”Ölkəmizdə virusun lokallaşdırılması istiqamətində işlər görülür və ÜST də bu məsələyə ciddi nəzarət edir”*

**Çin virusunun ölkəmizdə yayılmasının qarşısının alınması üçün Azərbaycan hökuməti kifayət qədər önləyici tədbirlər həyata keçirib və keçirməkdə də davam edir.**



Məlum olduğu kimi, artıq Azərbaycan Respublikası Nazirlər Kabineti yanında operativ qərargah yaradılıb, eyni zamanda sərhədlərdə səyyar xəstəxanalar fəaliyyət göstərir, bir qisminin də fəaliyyət göstərəcəyi qeyd edilir. Bu gün Azərbaycan dövləti, hökuməti, səhiyyəsi ciddi antivirus tədbirləri həyata keçirir. Məlum olduğu kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında operativ qərargah Azərbaycanda yeni koronavirus (COVİD - 19) infeksiyasına yoluxma faktının qeydə alındığını təsdiq edir.

TƏBİB-in şöbə müdiri Yaqut Qarayeva bildirib ki, bu gün Azərbaycanda 224 nəfər koronavirus şübhəsi ilə karantin şəraitində saxlanır.

O bildirib ki, onlardan 12-si İran, biri İtaliya, 7-si isə digər ölkə vətəndaşlarıdır:"Hazırda onların müayinə cavabları gözlənilir".

Qeyd edək ki, artıq Ümumdünya Səhiyyə Təşkilatı da Azərbaycan dövlətinin həyata keçirdiyi antivirus tədbirlərinə müsbət münasibət bildirib. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Azərbaycanda koronavirusa (COVID-19) ilk yoluxma halının qeydə alındığını təsdiqləyir. Bu barədə ÜST-nin Azərbaycan nümayəndəliyinin yaydığı məlumatda qeyd edilib. Bildirilib ki, ÜST yeni koronavirus epidemiyasına qarşı cavab tədbirləri ilə bağlı yerli səhiyyə qurumları ilə sıx əməkdaşlıq edir. "Yeni koronavirus epidemiyasına dair məlumatları ÜST-nin rəsmi internet səhifəsindən və sosial şəbəkələrdəki səhifələrindən, o cümlədən Azərbaycandakı rəsmi qurumlardan əldə etməyinizi və təşvişə qapılmamağınızı tövsiyə edirik" - məlumatda vurğulanıb.

Dövlətin həyata keçirdiyi antivirus tədbirləri əhalini nə qədər əmin edir ki, ölkəmizdə bu məsələ tam olaraq nəzarətə götürülüb?

Ekspertlər qeyd edir ki, Azərbaycanda koronavirus təhlükəsi tamamilə nəzarətə götürülüb və bu sahədə görülən qabaqalayıcı tədbirlər, yaradılan operativ qərargah, eyni zamanda səyyar xəstəxanalar, onların bütün vasitələrlə təmin edilməsi insanlarda bir əminlik yaradıb ki, dövlətin gördüyü tədbirlər effekt verir.

### *”Hesab edirəm ki, Azərbaycanda infeksiya geniş yayılarsa...”*

Tanınmış mütəxəssis, professor Adil Qeybulla baki-xeber.com-a bildirdi ki, bu istiqamətdə dövlətin həyata keçirdiyi antivirus tədbirləri və onun ÜST tərəfindən də dəstəklənməsi müsbətdir:"Əlbəttə, əslində bizim üçün əsas problemli ay mart ayıdır və mart ayı bir az təlatümlü aydır. İstilər düşdükdən sonra viruslar çəkilib getməlidir. Faktiki olaraq, çöldə onun yoluxma şansları aşağı düşdükcə kontakt və yeni yoluxanların sayı azalır".

ÜST-lə Azərbaycan arasındakı əməkdaşlıqdan da danışan A.Qeybulla vurğuladı ki, bu qurumun əməkdaşları da bu vəziyyətdə Azərbaycanı diqqətdə saxlayırlar. "Azərbaycanla Ümimdünya Səhiyyə Təşkilatı arasında əməkdaşlıqlar mövcuddur və ÜST-ün əməkdaşları bura gəlirlər. Koronavirus İranda yayıldıqdan sonra onların səfərləri xüsusən intensivləşib. H5N1 virusu, "Quş qripi" dünyada yayıldığı dövrdə analoji tədbirlər görüldü. Böyük Britaniyanın laboratoriyaları, mütəxəssisləri bu məsələnin lokallaşdırılmasında ciddi rol oynadılar. Bu baxımdan da, Azərbaycan kimi ölkələrə ÜST həmişə nəzarət edir.

Burada ən əsas məsələ odur ki, tibbi sanitar qaydaların şamil olunduğu və xüsusi təhlükəli infeksiyalar ÜST-ün işidir, predmetidir, bu ayrıca bir ölkənin işi deyil. Hesab edirəm ki, Azərbaycanda infeksiya geniş yayılarsa, ÜST Azərbaycana kifayət qədər həm texniki, həm mütəxəssis, həm də digər baxımdan yardımlar edəcək. Amma ayrıca, ölkələrin aidiyyəti qurumları da karantin tədbirlərini görməlidir. Ölkəmizdə virusun lokallaşdırılması istiqamətində işlər görülür və ÜST də bu məsələyə ciddi nəzarət edir, vəziyyət ciddiləşərsə, bu qurum lazımi dəstəyi verəcək"-deyə A.Qeybulla qeyd etdi.

***İradə SARIYEVA***

**Bakıda, Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VI toplantısı keçirilib. Prezident İlham Əliyev toplantıda iştirak edib. İştirakçıları salamlayan Prezident bildirib ki, bu əməkdaşlıq formatının təşəbbüskarı olaraq Azərbaycan böyük qürur hissi keçirir ki, illər ərzində Məşvərət Şurası nəhəng Cənub Qaz Dəhlizi layihəsinin icrasında bizim səylərimizi gücləndirən çox səmərəli işçi mexanizmə çevrilib.**

# 1994-cü il əsrin neft kontraktına yeni baxış - həyatda qalmaq layihəsi...



## **Elşən Əliyev:** *"Azərbaycanın çox çətin zamanlarında baş verən bu hadisə ölkəmizin müstəqilliyinin itirilməsi ilə də nəticələnə bilərdi"*

Sonra ölkə başçısı 1994-cü ildə Azərbaycanın imzaladığı layihələrin əhəmiyyətindən danışıb:"Əlbəttə ki, dövləti qurmaq üçün əsas yollardan biri güclü iqtisadiyyatın yaradılması idi və xarici investisiyalar olmadan bu mümkün deyildi. Ona görə də investisiya yatırmaq üçün xarici şirkətləri cəlb etməyimiz çox aydın idi, lakin haraya investisiya yatırılmalı idi? Xarici şirkətlərin maraq göstərə biləcəyi yeganə sahə neft sahəsi idi. Lakin Azərbaycan çox risqli ölkə hesab olunurdu, burada xarici şirkətlərin nümayəndələri özlərini çox narahat hiss edirdilər, onlar üçün hətta qala biləcəkləri normal otellər mövcud deyildi. Əlbəttə ki, bu vəziyyətdə investisiyaları cəlb etmək asan vəzifə deyildi. Lakin biz bunu edə bildik və 1994-cü ilin sentyabr ayında "Azəri-Çıraq-Günəşli" yataqları üzrə müqavilə Azərbaycan və xarici şirkətlərdən ibarət konsorsium tərəfindən imzalandı. Bu bizim tərəqqiyə, çiçəklənməyə və inkişafa doğru yolumuzun əvvəli idi. Ona görə də Azərbaycanın müasir tarixində neft amili həlledici rol oynayıb. Keçmişdə - Azərbaycan müstəqil olmadığı zaman, bildiyiniz kimi, ilk dəfə neft Bakıda çıxarılıb və dünyadakı ilk quyu bəlkə də buradan 10 kilometr məsafədə yerləşir. Lakin xalqımız bundan faydalana bilmirdi. Azərbaycanın müstəqil olmadığı zamanlarda 1 milyard tondan çox neft hasil edilmişdi. Əgər həmin vaxt Azərbaycan müstəqil olsa idi, biz bu gün dünyada ən varlı və çiçəklənən ölkələrdən biri ola bilərdik. Lakin həmin təbii sərvətlər Azərbaycan xalqının maraqlarına xidmət etmirdi. Yalnız biz müstəqil olduqdan sonra bu baş verdi. Bu günün Azərbaycanı bunun aydın nümunəsidir. Ona görə də 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması təkcə kommersiya layihəsi deyildi. Bu bizim üçün həyatda qalmaq layihəsi idi. Bu bizim üçün dövlətçiliyimizi, iqtisadiyyatımızı gücləndirmək, insanlarımızın daha yaxşı həyatını təmin etmək layihəsi idi. Bunlar hamısı baş verdi. Bizim nümunəmizdə neft lənət deyildi. Neft uğur qazanmaq, güclü ölkə qurmaq, insanlara normal həyat vermək, sabitlik, təhlükəsizlik, qonşularımızla harmoniyada yaşamaq üçün vasitələrdən, ən vacib vasitələrdən biri idi. Bundan sonra Azərbaycana maraq artdı və 1996-cı ildə "Şahdəniz" sazişi imzalandı. Həmin vaxt qaz ölkələrin enerji təhlükəsizliyində o qədər də vacib amil deyildi. Ona görə də "Şahdəniz" sazişinin imzalanması 1994-cü ildə "Azəri-Çıraq-Günəşli" kontraktının imzalanması qədər vacib hesab olunmurdu. Lakin bu günün reallıqları onu göstərir ki, onu vaxtında etmək necə də müdrik addım olub. Daha sonra 1997-ci ildə müqavilədə müəyyən edilmiş ərazidən ilk neft çıxarıldı. Bu baxımdan düşünürəm ki, bu da rekord idi. Çünki adətən xarici investorlarla müqavilənin imzalanması ilə ilk karbohidrogen ehtiyatlarının çıxarılması arasında vaxt 3 ildən çox olur. Bizdə isə bu, 3 il oldu və bu bizə imkan verdi ki, iqtisadiyyatın digər sektorlarına investisiya yatırmağa başlayaq".

Göründüyü kimi, ölkə başçısı 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasını təkcə kommersiya layihəsi deyil, bizim üçün həyatda qalmaq layihəsi kimi xarakterizə edib. Prezident bununla nə demək istəyib? Ekspert Elşən Əliyevin sözlərinə görə, "Əsrin kontraktı" mərhum prezident Heydər Əliyevin neft strategiyasının tərkib hissəsidir, onun başlanğıcıdır: "Məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi sayəsində Azərbaycan özünü dünyaya təqdim edə bildi. Tarixdə ilk dəfə xarici şirkətlər Xəzər dənizində neft-qaz yataqlarının işlənməsində iştirak etməyə başlamışlar. "Əsrin kontrakt"nın imzalanması tarixi hadisədir. Bu kontraktın faydasını bu gün Azərbaycan dövləti, Azərbaycan xalqı görür."Əsrin kontraktı"nın bizim müstəqil tariximizdə xüsusi yeri, xüsusi rolu var. Bunlar bir daha təsdiq edir ki, dünyanın böyük dövlətləri üçün də əhəmiyyətli olan "Əsrin müqaviləsi" ciddi düşünülmüş və sistemli olaraq aparılan siyasət kursunun tərkib hissəsidir. Məhz bu keyfiyyətinə görə hazırda çox sayda xalqlar onun faydasını görür. Müqavilənin imzalanması həm də onu göstərdi ki, Azərbaycan suveren və müstəqil dövlətdir, ölkənin təbii ehtiyatları tamhüquqlu şəkildə Azərbaycan xalqına məxsusdur. Həmin ehtiyatlardan necə və hansı qaydada istifadə məsələsini Azərbaycan xalqı, onun uzaqgörən, müdrik rəhbərliyi müəyyən edir. Digər tərəfdən, "Əsrin müqaviləsi" Azərbaycanın müstəqil və demokratik dövlət quruculuğunda qətiyyətlə və tam səmərəli olaraq addımladığını dünyaya nümayiş etdirdi. Bu prosesin davam edəcəyinə və ölkənin yeni-yeni uğurlara imza atacağına şübhəmiz yoxdur. Azərbaycanın çox çətin zamnlarında baş verən bu hadisə ölkəmizin müstəqilliinin itirilməsi ilə də nəticələnə bilərdi. Çünki bununla bağlı bizə çoxlu təzyiqlər edildi. Ancaq ölkəmiz bu sınaqdan üzüağ çıxa bildi".

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin fevralın 20-də İtaliyaya rəsmi səfəri zamanı Azərbaycanla İtaliya arasında bir sıra mühüm sənədlər imzalanıb.**

# Azərbaycan Ordusunda ilk - NATO ölkəsinin döyüş-təlim təyyarələri Ermənistanı narahat edən faktor kimi...



## **Ramil Hüseynov:** *"Azərbaycanın İtaliyadan hərbi təyyarələr alması digər Aİ və NATO dövlətlərinin ölkəmizə silah ixracına yol aça bilər"*

Bu sənədlər arasında Azərbaycanın Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və İtaliyanın "Leonardo S.p.A" şirkətinin icraçı direktoru Alessandro Profumo tərəfindən imzalanan "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə "Leonardo S.p.A" arasında "M-346" təyyarələri inteqrasiya sisteminin alınması ilə bağlı Sazişə dair Bəyannamə"ni xüsusi qeyd etmək olar.

Məsələ ondadır ki, "M-346" döyüş-təlim təyyarələri keyfiyyətinə görə mühüm çəkiyə malikdir. Sözügedən təyyarələrin əldə edilməsi gənc hərbi pilotlarımızın peşəkarlığının artırılması və döyüş vərdişlərinin təkmilləşdirilməsində mühüm rol oynayacaq. Eyni zamanda, "M-346" təyyarəsi 4++ və 5-ci nəsil müasir çoxməqsədli təyyarələr üçün keçid təyyarəsi kimi istifadə olunur. Azərbaycan Hərbi Hava Qüvvələrinin silahlanmasına bu tip aviasiya vasitələrinin daxil edilməsi onun döyüş imkanları genişləndirməklə yanaşı, Ermənistan üzərində hava məkanındakı üstünlüyünü daha da artıracaq. Təyyarənin ilk uçuşu 2004-cü ildə həyata keçirilib. Hazırda İtaliya, İsrail, Azərbaycan, Sinqapur və Polşanın hərbi hava qüvvələri tərəfindən istismar olunur. Təyyarənin müasir radiolokasiya sistemlərindən yayınması üçün yeni növ aktiv müdafiə sistemləri ilə də təchiz olunub. Bu, "M-346" hədəf olmaq şansını aşağı salır.

Ən başlıcası odur ki, Azərbaycan Avropa İttifaqının, NATO-nun aparıcı dövlətlərindən olan İtaliya kimi dövlətdən belə təyyarələr alır. Adətən, bir sıra aparıcı Aİ və NATO ölkələri Qarabağ məsələsi həll olunmadığına görə Azərbaycana silah satmaq istəmir. Ötən il Azərbaycanda keçirilən hərbi təlimlər zamanı nümayiş olunan İtaliya helikopterləri Ermənistanda böyük narahatlığa səbəb olmuşdu. Çox güman ki, "M-346" döyüş-təlim təyyarələrinin alınması da Ermənistanı narahat edəcək.

*"Bu bizim Ermənistan üzərində hərbi üstünlüyümüzü daha da gücləndirəcək"*

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən siyasi ekspert Ramil Hüseynovun sözlərinə görə, İtaliya kimi bir ölkənin bu cür hərbi profilli təyyarələri Azərbaycana ixrac etməsi mühüm hadisədir: "Ona görə ki, İtaliya NATO ölkəsidir. Sözügedən bloka aid təyyarələrin Azərbaycana ixrac olunması hərbi təyyarə parkımızı zənginləşdirəcək. Çünki Azərbaycanın döyüş təyyarələri əsasən Rusiya və Ukrayna istehsalı olan təyyarələrdir. Türkiyə, İsrail və Pakistandan da bu tip vasitələr alınır. Ancaq İtaliya ilə bu sahədə əməkdaşlığın önəmi başqadır.

**Ona görə ki, İtaliya sıradan bir NATO ölkəsi deyil. Bu ölkədə bir sıra müsir silah kompleksləri istehsal olunur. Azərbaycanın İtaliyadan hərbi təyyarələr alması digər Aİ və NATO dövlətlərinin ölkəmizə silah ixracına yol aça bilər. Ən azından, ona görə ki, Azərbaycan istənilən ölkədən öz vəsaiti ilə silah əldə etmək imkanına malikdir. Ermənistan isə silah alarkən kredit dilənir. Başqa bir tərəfdən, bu bizim Ermənistan üzərində hərbi üstünlüyümüzü daha da gücləndirəcək".**

***Vidadi ORDAHALLI***

# Azərbaycan Ukrayna və Belarusda erməni lobbisinin bütün səylərini məhv etdi - iqtisadi gücümüz əsas faktor rolunda...

**Azərbaycanın MDB məkanında da kifayət qədər etibarlı tərəfdaş qismində qəbul edilməsi, bununla bağlı ölkəmizlə əməkdaşlığı daha da dərinləşdirmək istəyən postsovet ölkələrinin mövcudluğu heç kimə sirr deyil.**

Proseslərin real təhlili isə qarşıdakı dövr ərzində Ukrayna və Belarus kimi postsovet ölkələri ilə Azərbaycan arasında əlaqələrin daha yüksək səviyyəyə çatacağını göstərir. Həmin ölkələrlə münasibətlərin inkişafı müəyyən parametrər baxımından Azərbaycan üçün olduqca önəmlidir. Ən azı o baxımdan ki, adıçəkilən ölkələr hərbi müstəvidə indiyə qədər Azərbaycanın əsas tərəfdaşlarından biri olub.

Digər tərəfdən, bu vaxta kimi Ermənistan və erməni diasporu Ukrayna və Belarusun Azərbaycanla əlaqələrinə xələl gətirmək istəsə də buna nail olmayıb. Əksinə, baş verən son proseslər Kiyev və Minskin Azərbaycana marağını getdikcə artırır. Bunun ümdə səbəblərindən biri Azərbaycanın böyük iqtisadi gücüdür. Məsələn, artıq məlumdur ki, bu il Azərbaycan Ukraynaya qoyduğu sərmayə həcmini onqat artıraraq 1,5 - 2 milyard dollar səviyyəsinə çatdırmaq niyyətindədir. Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev bu istiqamətdə işlərin Azərbaycanın həmin ölkədəki ticarət evləri vasitəsilə görüləcəyini qeyd edib. Azərbaycan səfiri, həmçinin, Ukraynada "çoxlu sayda" birgə müəssisə yaratmaqla bağlı yerli sahibkarlarla razılaşmalar əldə edildiyini bildirib:"Burada sərmayə yatırmaq fikrindəyik. Bu yaxınlarda iqtisadiyyat nazirimizlə söhbətim olub. Tezliklə Ukrayna, Belarus, Moldova səfərinə yollanacaq. Azərbaycan Prezidenti də bu regionda iqtisadi mövqelərimizi gücləndirmək barədə tapşırıq verib". Azərbaycanın Ukraynadakı sərmayələrinin strateji əhəmiyyət daşıya biləcəyi ehtimalı da irəli sürülüb. "BNE İntelliNews" bu fonda yazır ki, Azərbaycan, Gürcüstan və Türkiyə qarşılıqlı sərmayələrin "qızıl üçbucağ"ını yaradır və bu bloka Ukraynanın da qoşulması formalaşan bazarın həcmini və potensialını, təsir dairəsini xeyli artıracaq. Bu durumda Azərbaycanın Ukranya üzərindən Belarusa neft göndərməyə hazırlaşması isə vəziyyəti bir qədər də dəyişir.

Qeyd edək ki, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) martın 20-də Belarusun "Belneftexim" konserninə neft nəqlinə başlamağı planlaşdırır. SOCAR-ın İctimaiyyətlə əlaqələr və tədbirlərin təşkili İdarəsinin rəis müavini İbrahim Əhmədovun sözlərinə görə, "Belneftexim" konserni üçün nəzərdə tutulan ilk partiyanın həcmi 85 min tona yaxındır. O qeyd edib ki, Azərbaycan neftinin olduğu ilk tanker Supsa limanından göndəriləcək. İ.Əhmədov əlavə edib ki, Belarusa ikinci neft tankerinin satışı və çatdırılma müddəti ilə bağlı danışıqlar davam edir.

Qeyd edək ki, daha əvvəl "Belneftexim" konserninin mətbuat katibi Aleksandr Tişenko bildirib ki, SOCAR Odessa limanına iki tanker neft nəql edəcək. Belarusa nəql ediləcək ümumi neft həcmi 160 min ton nəzərdə tutulub. Azərbaycan nefti Odessa-Brodı boru kəməri vasitəsilə Ukraynadan Belarusun Mozır neft emalı zavoduna nəql olunacaq. Ukrayna Ali Radasının Energetika məsələləri üzrə Komitəsinin rəhbəri Andrey Qerus vurğulayır ki, Azərbaycan neftinin Belarusa tədarükünü ucuzlaşdıracaq Odessa-Brodı neft boru kəmərinin istifadəyə verilməsi Ukrayna tərəfi üçün də əlverişli olacaq:"İnfrastrukturumuzun istifadə olunmasında maraqlıyıq. Söhbət həm qaz, həm də neft boru kəmərlərindən gedir. Əlbəttə, texniki detallar var, ancaq bu, həll oluna bilən problemdir. Əsas odur ki, infrastrukturumuz həm Ukraynaya, həm də digər ölkələrə xeyir versin. Bütün bunların işə yaraması bizim maraqlarımıza uyğundur. Ukraynanın Belarusla, o cümlədən, prezidentlər və hökumətlər səviyyəsində normal dialoqu var. Əlbəttə ki, öyrənilməli olan texniki detallar var. Ancaq ümumi bir anlaşma baxımından Ukrayna, Azərbaycan və Belarus arasında əməkdaşlıq mövzusunda suallar yoxdur. Bu layihənin işləməsi üçün hər şey ediləcək".




Xatırladaq ki, Belarus və Rusiya rəhbərləri 2020-ci ildə neftin satış qiyməti və vergitutma məsələləri ilə bağlı razılığa gələ bilməyib. Hətta mətbuatda rəsmi Moskvanın neft güzəştləri qarşılığında Belarusdan öz suverenliyindən Rusiyanın xeyrinə qismən imtinasını tələb etdiyinə dair iddialar yer alıb. Elə bundan sonra bəlli olub ki, Belarus Rusiyadan kənarda bazar qiymətləri ilə neft almaq və neft məhsullarının satışının rentabelliyini təhlil etmək niyyətindədir. Belarus alternativ olaraq neft almaq üçün bir neçə Avropa ölkəsinə, eləcə də Azərbaycana müraciət edib.

**Azərbaycandan Belarusa neft tədarükü, ekspertlərə görə, Ukrayna ilə yanaşı, Baltikyani limanlarından da həyata keçirilə bilər. Amma indiki halda Odessa-Brodı boru kəməri daha əlverişli sayılır. Belarus neft emalı zavodları artıq Azərbaycandan gətirilən nefti emal etməyə hazırdır. Hesab edilir ki, bundan əvvəl olduğu kimi, indi də Azərbaycan Belarusu çətin vəziyyətdə qoymayacaq. Eyni zamanda Azərbaycan, Ukrayna və Belarus arasında işbirliyinin daha da möhkəmlənməsi bu durumda qaçılmaz sayılır. Təbii ki, belə vəziyyət adıçəkilən ölkələrdə Azərbaycanın mövqelərinin daha da güclənməsi deməkdir.**

***Nahid SALAYEV***

# Hər qəlb içindəki çiçəyin ətrini verir...

**Mən sizə bir qəlbin ətir saçan çiçəyindən - Mehriban xanım Əliyevadan danışmaq istəyirəm. Mən onun titullarından, təltiflərindən, mükafatlarından deyil, insanlığından söz açmağa çalışacam. Zahirən kövrək olan bu xanımın çiyinlərindəki yükün ağırlığına necə tab gətirdiyindən bəhs etmək istərdim. Sadə və səmimi sözlərlə...**



**Gülbehişt ORUCOVA**
*ATU Əsaslı Kitabxananın direktor müavini*

O insandan ki, amalı, məqsədi, məsləki, əqidəsi ancaq yaxşılıq etməkdir. Dara düşən, çətinliyə dücar olan insanların dadına çatmaqdır. Sözü, fikri, əməli xeyirlə yoğrulmuş, işığı və zəkası ilə digərləri işıqlandıran, özü şəxsiyyət zirvəsinə ucalan, ömrünü xeyriyyəçiliyə həsr edən, sözü ilə əməli həmahəng olan, gənc ikən müdrik olan birindən.

İnsan hər şeydən əvvəl ruhun gücüdür.

Stenford Universiteti belə bir təəssüf doğuracaq fakt aşkar etmişdir ki, adi insan öz əqli potensialının yalnız 2 faizini istifadə edir.Yerdə qalan 98 faiz isə fəaliyyətsiz şəkildə öz növbəsini gözləyir. Mehriban xanım isə öz fəaliyyəti ilə bizi potensialımızdan tam olaraq istifadə etməyə həvəsləndirir. Onun özəlliyi də bundadır.

Mehriban xanim öncə özünün və ətrafının, daha sonra isə bütöv cəmiyyətin istiqamətini müəyyən edən, aydın fikrə malik insandır. Uğur əldə etmək üçün bir xüsusiyyət mütləq olmalıdır - məqsədlərin dəqiqliyi, nə istədiyinizi dəqiq bilmək və onu əldə etmək yanğısı. Bizim Mehribanımız da məhz bu yanğı ilə məqsədlərə nail olur. Onun uğuru hər gün əlində olan işin üzərində səylə calışmağının nəticəsində olmuşdur.

Sokrat "vəzifə qorxusu"nu iyrənc, cəsarəti və özünə əminliyi isə vəzifənin uğurla həyata keçməsində əsas vasitə hesab edirdi. Qələbənin yolu cəsarətdən keçir. Necə ki, Platon buna uyğun "qorxaqlar heç bir zaman zəfər abidəsi tikə bilməz" ifadəsini işlətmişdi. Mehriban xanım aydınlanmanı öz ölkəsi, toplumu və ətrafı üçün bir məşəl edən cəsarətli vəzifə sahibidir.

Onun mehriban çöhrəsi biz xanimlara yaşam gücü verir. Bəzən kicik bir problemi faciəyə çevirən bizləri yıxıldıqda qalxıb hamıdan güclü olduğumuzu sübüt etməyə ruhlandırır. İnsanlarla mehriban olan Mehriban xanım, sanki həyatın acı tərəfini insanlardan uzaqlaşdırır və həyatına hüzur verir. Mehriban xanımın əqidəsində heç bir iş çətin deyil, sadəcə, qarşıya qoyulan məqsədə nail olmaq lazımdır. Uğur məqsəddir, yerdə qalan hər şey isə təfsirdir. Haradan gəldiyimiz mühüm deyil, mühüm olan hara getməyimizdir. Hara getməyimiz isə bütünlüklə özümüzdən və düşüncələrimizdən asılıdır. Aydın məqsədlər Mehriban xanımın inamını artırır, daha səriştəli edir və motivasiyasını gücləndirir. Məqsədlər nailiyyət ocağının yanacağıdır. Nəyi əldə etmək istəyiriksə, onu alt şüurumuza həkk etdirməliyik. Mehriban xanım nə isə etmək istəyəndə səssüy salmır, sakitcə məqsədinə catmağa çalışır və ortaya möhtəşəm bir iş cıxardır.

Konfutsi deyir: "Uzun səyahətlər bir addimla başlayır". Qətiyyətlə yola çıxan Mehriban xanım üçün heç bir yol uzun deyil, səbrlə hazırlaşan adam üçün heç bir uğur uzaq deyil. Çox adam yanlış olaraq düşünür ki, uğurun hesabını ona nail olduqdan sonra ödəməlidir. Onlar həyat ocağının qarşısında oturub deyirlər: "Əvvəlcə məni isit, sonra isə mən odun ataram". Mehriban xanım indiki vəziyyət və nail olmaq istədiyi məqsəd arasında körpü yaradır.

İllər ərzində liderlər üzərində aparılmış 3300-dən çox müşahidə və araşdırma nəticəsində onların hamısında bütün digər xüsusiyyətlərindən fərqlənən ümumi bir cəhət aşkar edilmişdir. Bu, təsəvvür qabiliyyətidir. Mehriban xanım da gözəl təsəvvürə malikdir. Mehriban xanım kim olduğunu və nə istədiyini bina tikilməzdən əvvəl hazırlanan layihə dəqiqliyi qədər dəqiq təsəvvür edəndir. Mehriban xanım gələcək, hara getmək və ora çatmaq üçün nə etmək haqqında düşünür. İnsan olmağın məsuliyyətindən qorxmur, çünki yükdə xəfif, dəyərdə nadir, qiymətdə olan bir zənginlikdir bu.

Mehriban xanım şüurluluğun, fərqindəliyin, kəşfetmənin, yenilənmənin, heyrət etmənin örtüsünə bürünmüş bir insandır. Yaşadığı hər gündə xalqını daha yaxşı bir hala gətirmək fürsəti təqdim etmək haqqında fikirləşir. Bu onun ölkəmizi daha parlaq bir gələcəkdə görmək istəməsinin təzahürüdür.

Çox inandığım bir söz var: "Daha yaxşı, yaxşının düşmənidir!" Halbuki, bu söz təkcə insanın özünü yeniləməsinin, kəşf etməsinin, çoxaltmağının qarşısında kəçərsizdir. Mehriban xanım hər gün yenilənmək, kəşf edə bilmək qabiliyyətinə malikdir.

Biz var olan şeyləri görər və təəccüblənərik. Mehriban xanım isə olmayan şeyləri xəyal edər və deyər: "Nədən olmasın?! " Ümumiyyətlə," uzaq məsafəli düşünmək", yəni bu gün veriləcək qərarlarda bir neçə il sonranı nəzərə almaq şəxsi və peşəkar həyatda uğur qazanmağın əsas amilidir. Mehriban xanım gələcəyi aydin təsəvvür etdiyinə görə həmin gələcəyin reallaşması üçün bu gün düzgün qərarlar verir.

Mehriban xanım daxili dəyərləri ilə harmoniyada yaşayan insandır. Həqiqi dəyərlərlə harmoniyada yaşamaq özünəinama və özünəhörmətə aparan əsas yoldur.

Xoşbəxtlik ən qaranlıq zamanlarda belə var, yetər ki, işığı açmağı unutmayaq. Bizim Mehriban xanım da işığı yandırmağı bacaranlardandır. O, sanki biz xanımlara ideal anı gözlə, anı yaşa və onu ideallaşdır, deyir. Bizim həyata inamımızı artırır. Həyatda asan iş yoxdur. Ən asan iş yemək yeməkdirsə, onun uçun də çənəni tərpətməlisən.

Diqqət uğurlu insanların xüsusiyyətidir. Dahilik sonsuz əziyyətləri qəbul etməkdir. Bütün möhtəşəm nailiyyətlər böyük diqqət və sonsuz əziyyətlə müşayiət olunur.

Mən Mehriban xanımı Tereza anaya bənzədirəm. Tanrının qismətinə bax ki, Tereza ana da avqustun 26 da doğulub. Ümumiyyətlə, Tereza Ana Tanrını sevdiyi üçün onun yaratdığı hər şeyi, o cümlədən insanları sevirdi. İllər sonra jurnalistlərdən biri ona deyəcək: "Şəxsən mənə milyon dollar versələr də, o xəstəyə toxunmazdım." Tereza Ana isə təbəssümlə cavab verəcək:"Şəxsən mən də milyon dollar müqabilində ona kömək etməzdim. Ancaq Tanrıya olan məhəbbətim məni bu addımı atmağa sövq etdi

Xanım Əliyevanin xəstə uşaqlara göstərdiyi mərhəmət məni həmişə hədsiz heyran qoyub. Onun əziz bayramları onlarla keçirməsi, öz nəvələrindən ayırmaması, onları öpüb bağrına basması bir insan üçün balaca bir işdir, insanlıq üçün isə cox böyük bir dərsdir. Nəvələrinə isə körpəlikdən aşılamaq istədiyi mərhəmət hissidir. Onların qəlbinə ideoloji cəsarət toxumları əkmək deməkdir. Bunlar ömür boyu xatırlanan hekayələrdir. Necə ki, üç balasını yetişdirdiyi kimi. Ana həm də övlad üçün, ictimai tərbiyə üçün yaşamalıdır. Qadın bütün həyatı çiçəkləndirən qüdrətli varlıq, mənəvi gözəllik, ruhi əzəmət və əxlaqi saflıqdır. Ana qəlbi pak, ülvi duyğuların, nəcib, xeyirxah arzu və istəklərin məskənidir. Ana qəlbi insanın ilk məktəbidir, məhəbbətin, səmimiyyətin, sədaqətin pozulmaz kitabıdır.

Xeyirxahlıq məfhumu olmasaydı, insanlıq da olmazdı. Həyat bəzən nəyi isə itirdiyimiz yerdən başlayır. Ən ümidsiz anımızda bizə uzanan, həyatımıza toxunan əllərdə, bəzən darıxdığımızda, bəzən addım atmağa gücümüz qalmadığında, dibə doğru çəkildiyimizi hiss etdiyimizdə, amma ən sonunda yeni bir başlanğıc üçün ayağa qalxdığımızda başlayır həyat. İçində itibatdığımızda çox şeyi öyrədir bizə həyat. Təkcə bir toxunuşla qaranlıqdan çıxırıq, xəyallar qururuq, o qaranlıq isə bir anda dağılır, həyata bağlanırıq. Mehriban xanım o qaranlıqlarımızı dağıtmağa göndərilmiş bir möcüzədir. Gözəgörünməz qüvvə bizi yıxılmaqdan qorxmamağa çağırır, çünki yıxıldıqda bizi qaldıran biri var artıq. Bu qüvvənin adı ümiddir, Mehriban xanım bizim ümidlərimizi gerçəkləşdirən bir varlıqdır.

Tarix özü də heç vaxt xeyirxah əməlləri unutmur. Xeyirxahlığı ilə insanların qəlbində əbədi yer tutmuş şəxsiyyətlərimizi hamımız yaxşı xatırlayırıq . Bizim Mehribanımız da tarixdə qalanlardan olacaq. Gəlin unutmayaq ki, ən böyük əxlaqi vəzifə öz qəlbini xeyirxahlıqa öyrətməkdən, başqalarına da onu təlqin etməkdən ibarətdir. Xeyirxah iş, xeyirxah əməlləri ilə tanınan Mehriban xanim mənən ucalır, yaşadığı cəmiyyətin ən ləyaqətli üzvünə çevrilir.

Məhəmməd Peyğəmbərin kəlamında deyilir:"Dünyəvi həyat əkin kimidir,onun məhsulu o dünyada yığılır".

Səxavətli insan ALLAHa, xalqa, behiştə yaxın və cəhənnəmdən uzaqdır.

Mehriban xanımın qaçqınlara, kimsəsizlərə, qocalara göstərdiyi diqqət onlara arxalarında güclü bir dövlət olduğunu sübut edir.

Həyata baxışımız, özümüzü qiymətləndirməyimiz, dəyərlərimizi müəyyənləşdirməyimiz əsas etibarilə ətrafımız tərəfindən müəyyən edilir. Bütün karyeramız və işimizə münasibətimiz ətrafımız tərəfindən - gündəlik ünsiyyətdə olduğumuz insanlar tərəfindən müəyyən olunur. El arasında belə bir deyim var: "Mehriban xanımın qapısına gedən naümid qayıtmaz". Bu onun qəlbinin saflığından, mərhəmətindən, iç dünyasının rəngarəngliyindən xəbər verir. Azərbaycan ziyalılarının əhatəsində böyüyən, Ulu öndər ocağında gəlin olan Mehriban xanım başqa cür ola bilməzdi.

Mehriban Əliyeva deyir:"Həqiqi mərhəmət real işlər görülməsini, konkret addımlar atılmasını tələb edir. Ən dəhşətlisi laqeydlik və biganəlikdir. Bunlar olmamalıdır. Sən istər ictimai xadim ol, istər dövlət xidmətində çalış, sadəcə, insanlığı qoruyub-saxlamaq lazımdır".

Mehriban xanım yaxşı əməlləri ilə insanlara örnək olası və başqalarını da yaxşı əməllərə sövq edən, dünyamızda hələ də var olan pisliklərin fonunda qayəsində kimlərəsə yaxşılıq etmək duran, amalında sülhpərvərlik duyğuları kök salan bir insandır.

"Mən humanizmin tərəfdarıyam və mənim üçün insan həyatı hər şeydən üstündür"- deyir, Mehriban xanım.

Humanizm kövrək qəlbin ifasıdır. Buna görə də rəhm hisslərini özündə daşıyır. Humanist insanlar öz ruhlarının göy üzünə bağlılığını dərk edərək, belə düşüncələri özlərində daşıyaraq, yer üzündə xeyirxah əməlləri həyata keçirməyi özlərinə borc hesab edirlər. Humanizm ruh zənginliyini özündə ehtiva edir. Mənəvi aləmə insanları sövq edir. Humanizm müdrikliyin tərkib elementləridir. Humanizm xeyirxah istəklərin və məqsədlərin məğzini ifadə edir. Humanizm, həmçinin, püxtələşmiş (burada müdriklik zirvəsinə yüksəlmə nəzərdə tutulur) insanın dəyərli xarakterini yaradan daxili hisslərdir, hisslərin məcmusudur. Humanist baxışlı, humanist qəlbli insanlarda səbr, dözüm mühüm şərtdir. Sabit və baza etibarilə dəyişməz pozitiv xarakter humanist təbiətli insanların məğzini təşkil edir.

Mehriban xanım həm də gözəl həyat yoldaşı, evdar xanım olmağı da bacarır. Sosial şəbəkələrdən onun ev işlərində nələrə qadir olduğunu görürük. Möhtərəm prezidentimiz müsahibələrindən birində deyir ki, mən ancaq xanımım Mehribanın hazırladığı yeməkləri xoşlayıram, özünun kulinar əsərləri ilə mənə və ailəmizin bütün üzvlərinə çox sevinc bəxş edir.

Şəms Təbrizinin təbrincə desək, Mehriban xanım vətən üçün qan, dostlar üçün göz yaşı, ailə üçün tər tökənlərdəndir.

Hər gün yaxşı adam kimi günə başlamaq və yaxsi adam kimi günü başa vurmaq gündəlik vəzifəmiz olmalıdır.Yaxşı adam olmaq dağ başında, tufan qarşısında əlində top saxlamaq kimidir. Bir an unutdunsa, bir an boş buraxdınsa, əlindən düşəcək. Bəli, həyat budur. Bizim Mehribanımız isə bir an belə yaxşi olmaqdan əl çəkmir. Deyirlər, yaxşı insan olmaq ya irsən keçir, ya da tərbiyə ilə əldə olunur. Mənim fikrimcə, hər ikisinin rolu var, eyni zamanda insanın öz-özünü yetişdirməyi isə ən vacibidir.

Mehriban xanım yaxşısı ilə, pisi ilə bütün insanları sevir. Yaxşılıq hər şeyi məğlub edir və özü heç vaxt məğlub olmur. Mövlana deyir: "Gül tikanla dostluğa qatlanıb səbr etdiyi üçün ona cox gözəl bir rayihə və lətif bir rəng nəsib oldu".

Mehriban xanım dünyada ən böyük xoşbəxtlik olan yaxşılıq etmənin sevincini yaşayır.

Sonsuz kainatın, sonsuz sevginin, sonsuz yaxşılığın və sonsuz var olmağın böyüklüyü ilə dayanmadan özünü inkişaf etdirməyə çalışan Mehriban xanım hər zaman, hər formada, hər kainatda qazanan insandır.

Qoy Günəş, Ay Mehriban xanımın həyat yolunu işıqlandırsın ki, onun qəlbinin gözəlliyi həmişə, hər yerdə özünü büruzə verə bilsin, necə ki, verir.

# Rusiya mediasında köhnə təcrübələrə söykənən yeni trend - Putinlə Ərdoğanı İlham Əliyev yenidən yaxınlaşdıra bilər...

**Məlum olduğu kimi, Suriyada Türkiyənin Rusiyanın müttəfiqi Əsədə bağlı qoşun birləşmələrinə qarşı ciddi hücuma keçməsi Moskvada böyük narahatlıq doğurub. Rus KİV-i tələm-tələsik ölkələrin NATO-da ABŞ-dan sonra ikinci böyük ordunun sahibi ilə üz-üzə gəlmək risqindən danışıblar.**

## *"Ancaq hələlik başqa bir məqam da var"*

## ***Fikrət Sadıqov:*** *"Hər iki tərəf bunu istəsə, dövlət başçımız buna meyl göstərsə, o zaman tərəflər arasında vasitəçilik mümkündür"*

Onlar Türkiyə pilotsuz uçan aparatlarının (PUA) son hücumları nəticəsində Əsəd ordusuna dəymiş böyük zərəri detallı şəkildə təsvir etməyə başlayıblar.

Məsələn, "Rosbalt"ın yazdığına görə, Türkiyə ordusu hücumun birinci günü ağır artilleriyanın və PUA-ların yardımı ilə Suriya ordusunun "Buk" və "Pantsir" zenit-raket komplekslərini, 23 tankını, 23 artilleriya qurğusunu və 5 helikopterini məhv edib.

Rusiya jurnalistləri sosial şəbəkədə yaydıqları açıqlamalarda Türkiyə PUA-larının Əsədə bağlı birləşmələri iflic vəziyyətinə saldığın bildirirlər. Onların dediyinə görə, bu PUA-lar hərəkət edən istənilən hədəfi - tankları, avtomobilləri, topa halında hərəkət edən əsgəri bölükləri vurur.

Təbii ki, Rusiya indiyə kimi 12 dəfə müharibə şəraitində olduqları Türkiyə ilə müharibəyə girmək istəməz. Buna görə də rus jurnalistlər Putinlə Ərdoğanı barışdırmaq imkanlarından danışırlar. Rus mediasının yazdığına görə, bu işi yalnız Azərbaycan lideri İlham Əliyev bacara bilər. Onlar bunu onunla əlaqələndirirlər ki, 2015-ci ildə Türkiyənin F-16 qırıcısı tərəfindən Suriya ilə sərhəddə Rusiyanın Su-24 bombardmançı təyyarəsi vurularkən yaranmış böhranın həllində də onun böyük rolu olub. Məqalə müəllifi İrina Corbenalze hətta Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya bu yaxınlarda baş vermiş səfəri zamanı bu məsələnin müzakirə edildiyini iddia edir.

Yeri gəlmişkən onu da qeyd edək ki, Prezident İlham Əliyevin vasitəçi ola biləcəyi ilə bağlı Rusiya mediasında səslənən fikirlər təsadüfi deyil. Ötən il Türkiyənin Xarici İşlər naziri Mevlut Çavuşoğlu Rusiya mətbuatına verdiyi açıqlamada Su-24 hərbi təyyarəsi ilə bağlı hadisədən sonra iki ölkə arasında siyasi böhrandan çıxış yolunun detallarını açıqlamışdı. Nazir bildirib ki, iki ölkə arasındakı gərgin münasibətlərin həllinə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Dağıstanın başçısı Ramazan Abdulatipov, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev və Azərbaycan əsilli rusiyalı biznesmen Fərhad Əhmədovun şəxsi iştirakı ilə nail olunub. O da məlumdur ki, həqiqətən 2015-ci ildə baş verən məlum təyyarə hadisəsi zamanı Rusiya-Türkiyə münasibətləri kəskin pisləşmişdi. O zaman iki ölkə münasibətlərinin yoluna qoyulmasında Prezident İlham Əliyevin böyük siyasi nüfuzu prosesə öz töhfəsini verib. Görünən odur ki, rus mediasının bu yöndə yenə



Prezident İlham Əliyevdən gözləntisi var.

Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqov, prinsipcə, bunu istisna etmədi: "Məsələ ondadır ki, Prezident İlham Əliyev çox təcrübəli siyasətçi və diplomatdır. Bununla yanaşı, siyasi təcrübəsi də kifayət qədər zəngindir. Eyni zamanda, biz Türkiyə ilə qardaş və müttəfiq dövlətik. Digər tərəfdən, Rusiya bizim strateji partnyorumuzdur. O baxımdan biz istəməzdik ki, Rusiya ilə Türkiyə arasında belə bir gərginlik yaransın. Ancaq o da faktdır ki, təyyarə hadisəsindən sonra, 2016-ci ilin ortalarında Rusiya-Türkiyə prezidentlərinin bir araya gəlməsində Prezident İlham Əliyevin töhfəsi olub. Əlbttə ki, bu çox mürəkkəb məsələdir. Suriyada baş verən hadisələr artıq neçə ildir davam edir və xüsusilə İdlib məsələsi böyük bir problemə çevrilib. Hesab edirəm ki, hər iki tərəf bunu istəsə, dövlət başçımız buna meyl göstərsə, o zaman tərəflər arasında vasitəçilik mümkündür. Çünki dövlət başçımızın kifayət qədər böyük siyasi təcrübəsi var. Fikrimcə, İlham Əliyev bunu etməyə hazırdır. Ancaq hələlik başqa bir məqam da var. O da ondan ibarətdir ki, Rusiya-Türkiyə dövlət başçılarının münasibətləri hələ düşmənçilik səviyyəsində deyil. Nəzərə almaq lazımdır ki, martın 5-də Putinlə Ərdoğanın görüşü olacaq. Yox, 5 martdan sonra tərəflər ortaq məxrəcə gəlməsə, yuxarıda sadaladığım şərtlərlə dövlət başçımız vasitəçilik edə bilər. Özü də bunu çox böyük məharət və peşəkarlıqla edə bilər".

***Vidadi ORDAHALLI***

# Ermənistanda Azərbaycan-Türkiyə qardaşlığına qarşı yeni oyun - "Artsaxın əvəzində Naxçıvan"...

**Erməni KİV-i növbəti cəfəng iddianı dövriyyəyə buraxıb. Onlar Ərdoğanın son Bakı səfərinə körpü salmaq üçün, guya həmin turne çərçivəsində Türkiyənin Azərbaycanla ərazi alveri etməsinə dair yanlış bir qənaəti bölüşüblər.**



## ***Hatəm Cabbarlı:*** *"Niyyətləri bəllidir, Türkiyə ilə Azərbaycanın arasını vurmaq, Naxçıvana olan ərazi iddialarını gündəmdə saxlamaq"*

Bildirilir ki, Azərbaycanda olarkən Ərdoğan "Dağlıq Qarabağ yalnız Azərbaycanın yox, həm də Türkiyənin işidir və bu, Azərbaycanın ərazi bütövlüyü səviyyəsində öz həllini tapmalıdır" deyib. İddia olunur ki, guya həmin açıqlamadan sonra Türkiyə Azərbaycanla olan sərhədi açmaq qərarına gəlib. Qeyd edək ki, Türkiyə koronovirusa görə sərhədi müvəqqəti bağlamışdı. Sitat: "Türkiyə Naxçıvan istiqamətində bir neçə iri layihə reallaşdırır. Bu da Naxçıvanın Türkiyədən asılılığını çoxaldır. Türkiyə çalışır ki, Naxçıvanı Azərbaycandan alıb özünə ilhaq etsin, bunun əvəzində isə Rusiyanın dəstəyilə Dağlıq Qaarabağı Azərbaycana geri qaytarsın".

Bu sərsəm iddianın dövriyyəyə buraxılmasında hansı məqsəd güdülə bilər?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə bildirdi ki, son günlər Türkiyənin atdığı addımlar bir çox ölkəni, o cümlədən, Ermənistanı narahat edir: "Ermənistan mətbuatı da bu məsələni diqqətdə saxlayır. Bu yöndə olan yazılara diqqət etdikdə, erməni siyasi ekspertlər həddən artıq paranoya vəziyyətində açıqlamalar verirlər. Normal siyasi ekspertin fikrinə gətirə bilməyəcəyi açıqlamaları belə dövriyyəyə buraxırlar. Erməni ekspert Qabrelyan Türkiyənin İdlibdə hərbi əməliyyatlara başlamasını təhlil edib və sonda gülməli bir nəticəyə gəlib. Müəllif sual edir ki, Türkiyənin Suriyada nə işi var. Bunun cavabı sadədir. Rusiyanın, İranın, İsrailin Suriyada nə işi varsa, Türkiyənin də o işi var. Qeyd edim ki, Suriyanın Türkiyə ilə 1000 kilometrə yaxın sərhədi var. Həmin sərhədə yaxın olan bölgədə 7 ildir hərbi əməliyyatlar gedir. Türkiyə bölgədə öz təhlükəsizliyini təmin etməyə məcburdur. İdlibdə vəziyyət dəyişərsə, Türkiyəyə yeni bir köç dalğası gələ bilər. Bu da olduqca ciddi rəqəmdir. Bu baxımdan da Türkiyənin bütün manevrləri beynəlxalq hüququn bütün prinsiplərinə cavab verir. Erməni ekspertlər bunu olduqca primitiv izah edirlər. Hətta bütün bunların fonunda guya Ərdoğanın Bakı səfəri zamanı Naxçıvanın Türkiyəyə verilməsi və bunun əvəzində Türkiyənin bizə Dağlıq Qarabağı qaytarmaqda kömək edəcəyi barədə qeyri-ciddi fikir də səsləndirirlər. Bu, günün reallıqları ilə uzlaşmayan fikirdir. Ermənilər bununla Azərbaycan və Türkiyə arasında hər gün yeni müqavilələrlə möhkəmlənən münasibətlərə zərbə vurmaq istəyirlər. Amma bunu olduqca primitiv üsulla edirlər. Ortaya məntiqli bir iddia qoysaydılar, bunu hardasa anlamaq olardı. Çünki onların daim Naxçıvan üzərində iddiaları olub və onu qabartmağa can atırlar. Münhen debatı zamanı Paşinyan Naxçıvan mövzusuna da toxunmuşdu. Ermənilər hesab edirlər ki, Qars və Moskva müqavilələri ləğv edilməli və Naxçıvan onlara verilməlidir. Belə sərsəm bəyanatları ciddiyə almaq lazım deyil. Niyyətləri bəllidir, Türkiyə ilə Azərbaycanın arasını vurmaq, Naxçıvana olan ərazi iddialarını gündəmdə saxlamaq. Bütün bu təxribatlara baxmayaraq, Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq münasibətləri davam edəcək".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Bakı-Ankara-Moskva üçbucağında yeni vəziyyət, İrəvanda daha bir xof və "bu ilin ikinci yarısında Qarabağ azad edilə bilər" qənaəti...




**Rusiya və Türkiyə arasında Suriyada yenidən dalana dirənən münasibətlərin dünya geosiyasətinə, o cümlədən Cənubi Qafqazda mövcud duruma necə təsir edəcəyi ilə bağlı indi ən müxtəlif fikirlər səslənməkdədir. Görünən budur ki, tərəflər arasında ziddiyyətlər hələ tam çözülməyib.**

Amma hər iki ölkə liderinin növbəti görüşündə tərəfdaşlıq münasibətlərinin qorunması istiqamətində müvafiq addımların atılması da gözlənir.

Regionun aparıcı ölkəsi olaraq Azərbaycan prosesi yaxından izləyir və hadisələrin gedişini öz maraqları çərçivəsinə uyğunlaşdırır. Baş verənlərdən daha çox əndişələnən tərəf qismində isə işğalçı Ermənistan çıxış edir. Erməni mediasına nəzər salanda bəlli olur ki, Türkiyə və Rusiya yenidən münasibətlərini qaydaya salsa, Qafqazı geosiyasi yeniliklər gözləyir. Xüsusən də Türkiyənin regionda möhkəmlənməsi qaçılmaz sayılır. Bundan başqa, Azərbaycanın Rusiya - Türkiyə münasibətlərini yenidən qaydaya salmaq üçün müvafiq addımlar ata biləcəyi də Ermənistanda böyük təşviş yaradır. Rusiya Diplomatlar Assosiasiyasının sədri Andrey Baklanov da bunu istisna etmir. O qeyd edir ki, Azərbaycan diplomatiyasının nüfuzu Suriyadakı gərginliyi səngitməyə, Rusiya ilə Türkiyənin bununla bağlı mövqelərini yaxınlaşdırmağa kömək edəcək: "Bu gün bütün dünyanın diqqəti Suriyaya yönəlib. Bakı regionda sabitləşdirici amil olduğuna görə azərbaycanlı həmkarlarımızın mövqeyi Rusiya üçün maraqlıdır və Rusiyada bu mövqedən razıdırlar". Ekspertin sözlərinə görə, Suriya böhranında Türkiyə bu gün başlıca oyunçulardan biridir: "Suriya münaqişəsinin tərəfləri hərbi qarşıdurma həddinə çatıblar, lakin oyunçulardan heç biri münaqişədə maraqlı deyil". Rusiyalı ekspert Rusiya ilə Türkiyə arasındakı mövcud gərginliklə bağlı Azərbaycanın nadir rol oynaya biləcəyini dilə gətirib:"Bakının vasitəçilik etməsini demirəm, amma uzun müddətdən sonra ilk dəfədir İdlibdə yaranan bu qədər təhlükəli vəziyyəti sabitləşdirməyə kömək edə bilər. Həm Rusiya ilə, həm də Türkiyə ilə xüsusi etimada əsaslanan münasibətləri olan Azərbaycan vəziyyətdən çıxmağa kömək edə bilər".

Elə nüfuzlu "Əl-Monitor" dərgisi də yazır ki, Ankara və Moskva münasibətlərin pozulmasında yox, müxtəlif istiqamətlərdə davam etməsində maraqlıdırlar:"Ankara Suriya ordusuna qarşı "Bahar qalxanı" əməliyyatına başladığını bildirib. Rusiya prezidenti Vladimir Putin isə İdlib böhranı ilə əlaqədar martın 5-də Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşməyə razılaşıb. Türkiyə fevralın 27-dən bəri bir neçə PUA və hava hücumundan müdafiə sistemi və 100-dən çox tankı məhv etdiyini, habelə Suriya qüvvələrinin 2212 üzvünü, o cümlədən 3 generalı öldürdüyünü açıqlayıb. Fevralın 27-də İdlibdə ən az 36 türk əsgərinin ölümünə səbəb olan hava zərbələri NATO üzvü olan Türkiyə daxilində şok effekti doğurub. Əvəzində, türk ordusu Bəşər Əsəd qüvvələrinə böyük zərər vurub. Yaranan sual: Moskva müttəfiqinin vurulmasına niyə icazə verib? Rusiya prezidenti Putin əvvəlcə başqa planlarının olduğunu söylədiyi halda, niyə martın 5-də Moskvada Ərdoğanla görüşməyə razı olub?Axı hərbi ekspertlər arasında konsensus budur ki, fevralın 27-də hava zərbələri Rusiya təyyarələri tərəfindən həyata keçirilib. Xarici Siyasi Tədqiqatlar İnstitutunun Yaxın Şərq Proqramının direktoru Aaron Steyn bildirir:"Rusiya təyyarələri gecə uçur, rejim bunu bacarmır. Türklər də gecə bombalanıb". Hər iki tərəf, ehtimal ki, birbaşa qarşıdurmanın qarşısını almaq üçün hücumda Əsəd rejimini günahlandırıb. Birminghem Universitetinin fəxri tədqiqatçısı, "Rusiya imperiyası" adlı kitabın müəlllifi Kevork Oskan "əl-Monitor"a verdiyi açıqlamada deyib: "Rusiyanın rejim lehinə müdaxilə etmək istəməməsi Ərdoğanın simasını qorumaq və Əsədi güzəştə getməyə meylləndirmə cəhdi kimi görünür. Bu mərhələdə Türkiyənin Suriyadakı maraqları, xüsusən kürdlərlə bağlı hissə Rusiya ilə böyük bir sövdələşmə doğura bilər. Rusiya bunun müqabilində İdlib tapmacasını çözəcək". Hesab edilir ki, tərəflər münaqişə istəmədiklərindən razılığa gələcək. Bu isə onların digər istiqamətlərdə işbirliyinin daha da möhkəmlənməsi ilə müşayiət oluna bilər". Elə erməni tərəfini də qorxudan budur. Burada fikirlər səslənir ki, Rusiya və Türkiyə yenidən işbirliyini davam etdirsə, belə vəziyyət mütləq Qafqaza, o cümlədən Dağlıq Qarabağ münaqişəsinə də təsir edəcək. Bunu rus siyasi analitik Stanislav Tarasov da istisna etmir. O xatırladır ki, Suriya məsələsində belə Türkiyə və Azərbaycan arasında fəaliyyətlərin hansısa koordinasiyası həyata keçirilib, çünki Bakıda Ankara ilə sıx əməkdaşlıq etdiklərini gizlətmirlər. O qeyd edib ki, Ərdoğan Suriyada qalib gəlsə, Qarabağ istiqamətində fərqli davranmağa başlayacaq: "Bu mənim şəxsi qənaətimdir, lakin hələ də Suriyada baş verənlərdən Ərdoğanın qalib gələcəyi ilə bağlı nəticələr çıxara bilmərik. Ərdoğan Bakıya getdi, Əliyevlə danışıqlar apardı, mütləq orada Suriya məsələsi, İdlib problemi müzakirə olunub, Türkiyə və Azərbaycan arasında fəaliyyətlərin hansısa koordinasiyası həyata keçirilib, Bakıda Ankara ilə sıx əməkdaşlıq etdiklərini gizlətmirlər. İrəvanın yaranmış vəziyyətdən necə istifadə edəcəyini demək çətindir. Amma hadisələr İrəvanın lehinə inkişaf etmir".

Ermənistanın "Lragir" saytı da yazır ki, İdlibdə baş verən proseslərin son nəticəsi Dağlıq Qarabağda yekunlaşa bilər. Sayt bildirir ki, Türkiyə İdlibdə Rusiya ilə razılışaraq, Dağlıq Qarabağın Azərbaycana qaytarılmasını təmin edə bilər:"Hətta analitiklər Ankara və Moskvanın İdlibdəki təhlükəsizlik zonaları razılaşmasının Qarabağda da həyata keçirilə biləcəyini istisna etmir. Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu bildirdi ki, Rusiya arzulayarsa, Qarabağ problemini birgə həll edə bilərlər. Faktiki olaraq bu, Əliyevin Münhendə səsləndirdiyi "mərhələli həll" variantı, yəni rusların təklif etdiyi "Lavrov planı"dır. Ərdoğan Bakıda olarkən Qarabağ problemindən də danışdı. Türkiyə və Azərbaycan prezidentləri görüşdə bir sıra iqtisadi, rabitə və hərbi razılaşmaların bir hissəsi də Naxçıvanla bağlıdır". Məqalədə erməni ekspert Ayk Qabrielyanın ötən həftə səsləndirdiyi fikirlər xatırlanır. Qabrielyan hesab edir ki, Ərdoğan Putini Qarabağın Azərbaycana qaytarılması fikrinə inandırıb:"Ərdoğan və Putinin çox böyük hərbi-strateji planları var və biz yaxın vaxtlarda bunun şahidi olacağıq. Ermənistana isə baş verənlərin mütləq təsiri olacaq. Ən azından, Qarabağ məsələsində biz yeni təzyiqlərə və savaşa hazır olmalıyıq. Ankaranın istəyi ilə Moskva bunlara, yəqin ki, yaşıl işıq yandıracaq". "Lragir" iddia edir ki, Türkiyə İdlibdə razılaşma əldə etmək istəyir:"İstisna deyil ki, Ankara İdlibdə Rusiya ilə razılaşmağın əvəzində Moskvadan Qarabağın Azərbaycana qaytarılmasını istəsin". Burada söhbət ilk növbədə Qarabağ ətrafında olan 7 rayondan gedir. Elə rus ekspert Aleksandr Perenciyev də bildirir ki, birinci növbədə mübahisə predmeti olmayan Azərbaycanın yeddi rayonunun işğaldan azad edilməsi məsələsini qaldırmaq lazımdır. Onun sözlərinə görə, hazırda Dağlıq Qarabağla bağlı "mübahisəli ərazi" terminindən istifadə olunursa, o zaman Ermənistan tərəfinin ətrafdakı 7 rayonu əlində tutması işğaldır və bu faktı əsas kimi istifadə etmək lazımdır. Perenciyev vurğulayıb ki, bu problem ətrafında müzakirələr aparılarkən dərhal Ermənistanın Azərbaycanın bu yeddi rayonunun işğal faktı barədə danışır və həmsöhbətləri düşünürlər ki, Ermənistan bu torpaqları işğal edibsə, onda çox güman ki, Dağlıq Qarabağ da təcavüzə məruz qalıb:"Bu yeddi rayonun Azərbaycana məxsus olması haqda Ermənistan tərəfinin imzaladığı həqiqi sənədlər var və onlar şəkk-şübhəsiz bu torpaqları azad etməlidir. Bundan başlamaq lazımdır. Bütün dünyaya ermənilərin işğalçı siyasətini ifşa etmək və sonra Qarabağın azad edilməsini tələb etmək lazımdır". Perenciyev əmindir ki, bu istiqamətdə fəaliyyət göstərilsə, 2020-ci ilin ikinci yarısında Dağlıq Qarabağın da işğaldan azad olunmasını gözləmək olar. Ermənistanda hesab edilir ki, Rusiyada belə təkliflərin gündəmə gəlməsi təsadüfi deyil və Kremlin yeni geosiyasi maraqlarına hesablanmış yanaşmadır. Bildirilir ki, Paşinyan indiki vəziyyətdə Rusiyanın geosiyasi maraqlarından irəli gələn tələbləri yerinə yetirmək məcburiyyətindədir. Əks təqdirdə onu hakimiyyətdən devrilmə təhlükəsi gözləyir. Moskva isə çoxdan Dağlıq Qarabağ ətrafında bir neçə rayonun Azərbaycana qayıtmasını istəyir.

Bu halda Rusiya Azərbaycanı görmək istədiyi təşkilatlarda görə biləcəyini düşünür. Bakı isə proseslərin bu səpkidə inkişafını yaxından izləyir və hadisələri öz marağına uyğunlaşdırmağa çalışır. Bu durumda Türkiyənin də oyuna daxil olması vəziyyəti tamamilə ölkəmizin lehinə dəyişir. Ankaranın isə oyuna daha böyük güclə daxil olması, əslində, qaçılmaz sayılır. Sadəcə, Ərdoğan və Putinin martın 5-ə nəzərdə tutulan görüşündən sonra tərəflər arasında fikir ixtilafının çözülməsi ilə Ankaranın Qafqazda daha fəal olması proqnozlaşdırılır. Təbii ki, bu fəallıq mütləq mənada Dağlıq Qarabağ münaqişəsinə də öz təsirini göstərəcək. Elə erməniləri də narahat edən məhz budur.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Putinlə Ərdoğanın tarixdə ən çətin Rusiya-Türkiyə müzakirəsi - arxada müharibələr tarixi, qarşıda qeyri-müəyyən İdlib problemi...

## *Mübariz Əhmədoğlu: "Rusiya kiminsə Suriyada qalmasını deyil, çıxmasını müzakirə edəcək"*

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla rusiyalı həmkarı Vladimir Putin arasında keçiriləcək növbəti görüşün vaxtı məlum olub. Türkiyə KİV-nin verdiyi məlumata görə, prezidentlərin görüşü martın 5-də Moskvada baş tutacaq.**

Suriyanın İdlib vilayətində yaşanan gərginlikdən çıxış yolları müzakirə ediləcək.

Rusiya Prezidenti Vladimir Putinlə Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın Moskvadakı görüşü asan olmayacaq, lakin görünən budur ki, liderlər İdlibdəki vəziyyətin nizamlanmasına istiqamətləniblər. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bunları bəyan edib:

"Bəli, biz ümid edirik ki, həftənin ortasında, martın ya 5-i, ya da 6-sı görüş Moskvada baş tutacaq, indi hazırlıq gedir. Bu, şübhəsiz ki, asan görüş olmayacaq, lakin dövlət başçıları da İdlibdəki vəziyyətin nizamlanmasına istiqamətləndiklərini və Soçi razılaşmalarına sadiqliklərini təsdiq edirlər. Bu vacibdir".

İndiki gərgin şəraitdə Putin-Ərdoğan görüşündən nə gözləmək olar?

Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, nəzərdə tutulan görüşdə hər iki ölkənin başçısı dialoqa hazırlığını nümayiş etdirmək istəyir: "Mən bu görüşdən əvvəlki qaydada razılaşmanın əldə olunmasını gözləmirəm. Yəni söhbət Astana və Soçidəki razılaşmalardan gedir. 5-6 martda nəzərdə tutulan görüş İstanbulda olmalıydı. Sonradan İdlibdə vəziyyət gərginləşdi və Putin görüşdən imtina etdi. Ardınca Ərdoğan onunla əlaqə saxlayıb görüşmək istədiyini dedi. Putin dedi ki, onun İstanbula gəlmək fikri yoxdur, görüş lazımdırsa, Moskvaya gəlin. İndi də Ərdoğan Moskvaya gedir. Rusiya Türkiyənin buraxdığı səhvdən istifadə etdi. Türkiyə İdlibdə həm hüquqi, həm də hərbi güc baxımından balans yarada bilmişdi. Orada möhkəmlənəndən sonrakı arxayınlıq onu Liviyaya qoşun göndərməyə vadar etdi. İdlibdəki ən hazırlıqlı hərbçiləri Liviyaya göndərdi. Rusiya bundan istifadə etdi. Suriyanın hökumət qoşunlarına dəstək verdi və onlar İdlibə girdilər. Hazırda Türkiyə çalışır ki, İdlibdə özünün




əvvəlki vəziyyətini bərpa etsin. Fikrimcə, bu artıq mümkün deyil. Bu andan etibarən Rusiyanın qarşısında duran məqsəd Türkiyəni, ümumiyyətlə, Suriyadan çıxarmaqdır. Hesab edirəm ki, bundan sonrakı danışıqlar məhz bu aspektdə gedəcək. Yəni Rusiya kiminsə Suriyada qalmasını deyil, çıxmasını müzakirə edəcək. Allah eləsin ki, Türkiyə qurulmuş tələdən yayına bilsin. Çünki həm Çin, həm ABŞ Türkiyənin zəifləməsində maraqlıdır. İndi də bu işə Rusiya qoşuldu. Mən çox arzu edərdim ki, Türkiyə bir qədər fasilə götürüb güclənsin. Yoxsa, təkbaşına bu güclərlə üz-üzə gəlmək çətindir.

**Nə qədər aktivlik göstərsə, özünün əleyhinə işləyəcək. Rusiya Suriyaya kifayət qədər silah verib. Orada mücadilə yersizdir. Türkiyə artıq vaxtı ötürüb. Yəqin ki, danışıqlarda Türkiyə bir qədər arxa plana keçməyi təklif edəcək".**

***Məhəmmədəli QƏRİBLİ***

# Rusiya - Türkiyə gərginliyindən Ermənistanı gözləyən fəlakətlər - düşmən ölkədə sevincək olanların korafəhmliyi...

## *Akif Nağı: "İctimai rəy tələb edir ki, Türkiyə Dağlıq Qarabağ məsələsində də öz gücünü ortaya qoysun"*

**Məlum olduğu kimi, Suriyada baş verən hadisələr Rusiya ilə Türkiyə arasındakı münasibətləri gərginləşdirib. Rusiya aviasiyasının açdığı atəş nəticəsində 30-dan artıq türk əsgəri dünyasını dəyişib. Qeyd edək ki, Suriyada müharibə başlanandan sonra bu, iki ölkə arasındakı münasibətlərin korlanmasına təsir edən ilk hadisə deyil.**

Bir neçə il əvvəl Türkiyə Rusiyaya məxsus qırıcı təyyarəni vurdu və həmin hadisə iki dövləti üz-üzə qoydu. Qarşılıqlı diplomatik səylər nəticəsində problem yoluna qoyuldu. Bir neçə gündür ki, Suriyadakı vəziyyətə müdaxilə yenidən bu iki ölkəni qarşı-qarşıya gətirib. Bundan daha çox xoşhal olan isə Ermənistandır. Onlar sevincli halda qeyd edirlər ki, iki ölkənin münasibətinin korlanması Dağlıq Qarabağlı bağlı məsələdə Azərbaycanın mövqeyini xeyli zəiflədəcək. Ancaq əksər analitiklər hesab edirlər ki, münasibətlərin bu halı, əksinə, Ermənistanın özü üçün də yaxşı nəsə vəd etmir. Rusiya-Türkiyə münasibətlərinin gərgin olmasının Ermənistana nə kimi təsiri var?

Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Türkiyənin fəallığından Ermənistanın bərk narahatlığı hiss edilir: "Mən də bu tendensiyanı aydın şəkildə onların mediasında izləyirəm. Türkiyə-Rusiya münasibətlərinin yaxşılaması Dağlıq Qarabağla bağlı razılaşdırılmış bir mövqenin ortaya çıxmasına səbəb ola bilərdi. Ancaq təəssüf ki, biz həmin yaxınlaşma dönəmində irəliləyişi görmədik. İndiki gərginləşmə fonunda da bizə bunun hər hansı bir təsirinin ola biləcəyini zənn etmirəm. Əksinə, Ermənistan ciddi narahat olmalıdır ki, Türkiyə İdlib məsələsindən qalib çıxır. Ortaya konkret mövqe qoya bilir ki, ona yaxın sərhədlərdə baş verənlərə biganə deyil və yeri gələndə güc də tətbiq edə bilir.

Dağlıq Qarabağ konflikti də Türkiyə ilə həmsərhəd olan ölkələrə aiddir. Türkiyə Suriyadakı gərginlikdən sonra bu məsələyə də baş vurub, ortaya konkret mövqe qoya bilər. Hər situasiya ilə bağlı düzgün davranmağı bacarmalıyıq. İndiki vəziyyət Türkiyənin xeyrinə işləyirsə, deməli, bunun Azərbaycana da xeyri var, Ermənistana isə ziyanı. Erməni mətbuatında bu narahatlıq var ki, Türkiyənin növbəti istiqaməti Dağlıq Qarabağ ola bilər.



Mən çox nikbin yanaşıram ki, Türkiyə bir çox məsələdə özü ilə hesablaşmağı tələb edəcək. Bu məsələlər də Türkiyənin daxilinə deyil, xaricinə aid məsələlərdir. Türkiyənin daxili ictimai rəyindəki çağırışlara da nəzər salsaq görərik ki, Dağlıq Qarabağla bağlı tələblər çoxalıb. İctimai rəy tələb edir ki, Türkiyə Dağlıq Qarabağ məsələsində də öz gücünü ortaya qoysun. Əminəm ki, Türkiyə bu istiqamətdə ciddi addımlar atacaq. Çünki artıq ermənilərin özbaşınalığı əndazəni aşıb. Onları öz yerində oturtmağın çoxdan zamanı çatıb".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Ermənistanın azərbaycanlılara qarşı soyqırımlar tarixi

**Ermənilərin Qaradağlıda törətdikləri soyqırım və faciə tariximizin qanla yazılmış səhifəsidir. Ermənistan silahlı qüvvələrinin və onlara havadarlıq edənlərin Qaradağlıda törətdikləri soyqırım haqqında əlimizdə olan məlumatları sizə təqdim edirik.**

## III yazı

*(Əvvəli 28 fevral sayımızda)*

Məlum olduğu kimi, 1990-cı il noyabrın 24-də baş verən hadisə zamanı xalq A.Mütəllibovun hadisə yerinə gəlməsini tələb edirdi.

Tarixçilər qeyd edirlər ki, bu hadisədən sonra Qaradağlı müdafiəçiləri kəndin ətrafında güclü müdafiə postları, istehkamlar və səngərlər qurmaq qərarına gəldilər. Kəndin ətrafında 5 post yaradılıb etibarlı müdafiə qurğuları ilə təchiz olundu. Xankəndidən gələn yolun üstündə üç post qurulmuşdu. Xocavənd rayonu istiqamətində, kəndin girişində yaradılmış post əhəmiyyətinə görə birinci post hesab olunurdu. "Bu postun keşikçilərlə təmin olunmasını məktəb direktoru N. Zeynalov öz üzərinə götürmüşdü. Məlumatlara görə, orada əsasən N. Zeynalovun şagirdləri olmuş gənclər və məktəblilər keşik çəkirdilər. Asfalt yoldan bir qədər aralı kolxoz idarəsinin yaxınlığında qurulmuş post ikinci hesab olunurdu. Mirzəli və Zahir bu postun məsuliyyətini daşıyırdılar. Kəndin çıxışında asfalt yolun üstündə qurulmuş 3-cü postda Nazim, Qərib, Telman, Vidadi və başqaları dayanırdılar. Kəndxurə istiqamətində qurulmuş 4-cü post da mühüm postlardan biri idi. Kəndə olan basqınların əksəriyyəti bu istiqamətdən olurdu. Burada Faiq, Rabil, Xudayat və onların dostları keşik çəkirdilər. Nəhayət, 5-ci post kəndin ortasında keçən Xonaşen çayının üstündə, Zinki dərəsinin qarşısında yaradılmışdı. Zinki postunun qorunması Məmməd, Şamil, Ələmə və Ələddin kimi cəsur oğullara tapşırılmışdı. 1990-cı ilin noyabr ayından başlayaraq bütün postlarda fasiləsiz olaraq silahlı müdafiəçilər keşikdə dayanırdılar. 1991-ci ilin əvvəllərində baş vermiş faciə vəziyyəti daha da gərginləşdirdi. Yanvarın 10-da kəndin nüfuzlu şəxslərindən olan Sultan Bayramov erməni quldurlarına qarşı birgə mübarizə tədbirləri hazırlamaq üçün qonşu Əmrallar kəndinə getmişdi. Sultan Qaradağlıya qayıdanda kəndə çatmamış, birinci postdan 4 kilometr məsafədə onun mindiyi "UAZ-469" markalı 53-55 AQT dövlət nişanlı minik maşını ermənilər tərəfindən qəfil atəşə tutulur. Maşının sürücüsü Kərəm Tağıyev maşını sürüb kəndə çatdırsa da, Sultan Bayramovun həyatını xilas etmək mümkün olmur. O, iki saatdan sonra aldığı yaralardan dünyasını dəyişir. Sultanın dəfn günü Laçın-Şuşa yolunda jurnalist Salatın Əsgərovanın ermənilər tərəfindən öldürülməsi xəbəri kəndə yayıldı. Bu xəbərdən hiddətlənən dinc əhali erməni vəhşiliyinə etiraz üçün onların yaşadıqları kəndlərə doğru yürüşə çıxdılar. Lakin kəndin müdafiəçilərindən bir qrupu qabağa çıxaraq əhalini boş əllə erməni quldurlarının üstünə getməyin mənasız olduğunu bildirərək, onları dayandırmağa müvəffəq oldular. Bu faciəli hadisədən sonra qaradağlılar erməni təxribatlarının qarşısını almaq üçün əməliyyat planı hazırladılar. Əməliyyata Ədalət Məmmədov rəhbərlik edirdi. Əməliyyat qrupuna İlqar Hüseynov, Elmidar Bayramov, Telman Tağıyev, Eldar Dadaşov, Rafiq Quliyev, Qərib Mustafayev, Məmməd Məmmədov və Məmməd Mustafayev daxil idi. Onlar iki dəstəyə ayrılıb Xankəndi-Xocavənd yolunu həm girişdən, həm də çıxışdan nəzarətə aldılar. Kəndin müdafiəçiləri tərəfindən Xankəndidən Xocavəndə tələsən, içində 6 erməni quldurun olduğu "UAZ" markalı maşın ələ keçirilərək məhv edildi. Beləliklə də Sultan Bayramovun, Salatın Əsgərovanın və digər şəhidlərin qisası quldurlardan alındı. Ermənilər ancaq üç gündən sonra rus hərbçilərinin müşayiəti ilə gəlib meyitlərini meşədən apardılar. Bundan sonra Xankəndi- Xocavənd yolunda ermənilərin hərəkəti dayandı. Bu qisas əməliyyatında qaradağlı müdafiəçiləri altı ədəd xarici avtomat, bir ədəd ov tüfəngi və xeyli patron ələ keçirdilər. 1991-ci il martın 9-da erməni quldurları kəndin yaxınlığındakı mal fermasına qəfildən silahlı basqın edib iki nəfəri qətlə yetirdilər. Həmin il, iyun ayının 28-də, gecə saat bir radələrində isə Qaradağlı kəndi ermənilər tərəfindən toplardan, pulemyotlardan və avtomatlardan şiddətli atəşə tutuldu. Kəndin bir neçə evini alov bürüdü, bir neçəsi isə mərmi zərbəsindən dağıldı. Qadınlar, qocalar və uşaqlar düşmən atəşindən qorunmaq üçün zirzəmilərə sığınmağa məcbur oldular. Həmin gecə ən böyük faciə kəndin 5 kilometrliyində Vərəndəli sahəsində yerləşən fermada baş vermişdi. Quldurlar kəndi atəşə tutmaqla yanaşı, eyni zamanda fermadakı evlərə soxularaq altı nəfər günahsız ferma işçisini də güllələmiş və izi itirmək üçün onları yanan evlərdən birinin içinə atmışdılar. Bundan sonra onlar kənara çəkilərək ferma tam yanana qədər oranı atəş altında saxlamışlar. Bəyverdi Novruov başda olmaqla faciə yerinə gələn kənd camaatı yanan otaqların birində üç nəfərin gülləden dəlik-dəlik olmuş, odun-alovun içində yanmış meyitlərini çıxara bilmişlər. Başqa bir otağın odu söndürüldükdən sonra isə tamamilə yanmış digər üç nəfərin cəsədi aşkar edilmişdi. Şəhidlərin dəfnindən üç gün sonra Ruzigar Məmmədov Ağdam polis batalyonunun 2 nəfər əməkdaşı ilə birlikdə əməliyyat planı hazırlayır. Onlar silahlanıb gecə erməni kəndi Kəndxurda tərəf gedir və nəzarət postlarının birinin yaxınlığında mövqe tuturlar. Gecə erməni yaraqlılarının komandiri üç nəfərlə postları yoxlamağa çıxarkən atasının və dayısının intiqamını onlardan alırlar.

Qaradağlı kənd sakinləri Çingiz Məmmədov, Kərəm Ağalarov və Şəfqət Məmmədova Qaradağlının ağır günləri haqqında aşağıdakı məlumatı vermişlər.

Məlumatlara görə, 8 sentyabr 1991-ci il hadisəsindən sonra qaradağlıların nümayəndələri Məzahir Ağalarov, Nobil Zeynalov 20 nəfərlə Bakıya gedərək, Ayaz Mütəllibovla görüşmüş, ona Qaradağlının ağır vəziyyəti barədə məlumat vermişlər. A.Mütəllibov qaradağlılara kəndin müdafiəsi ilə şəxsən özü məşğul olacağına söz vermiş və bundan 3-4 gün sonra 11 nəfərdən ibarət bir qrup hərbçi Qaradağlıya göndərilmişdi. Onlar kəndin yuxarı hissəsində Abbasovun evində yerləşmişdilər. Kəndin müdafiəçiləri həmin dəstə ilə birlikdə bir qisas əməliyyatı hazırlayıb həyata keçirməyə müvəffəq oldular. 21 nəfərlik dəstə Vərəndətiyə gedən yolun kənarında yerləşən çoxlu erməni quldurunun toplaşıb keşik çəkdiyi, hərbi əhəmiyyətli məntəqə olan fermaya hücum edərək üç nəfər quldurü zərərsizləşdirmiş, qalanlarını isə qonşu erməni kəndlərinə çəkilməyə məcbur etmişlər. Lakin təxminən 1 aydan sonra kəndin mühafizəsinə kömək üçün göndərilmiş hərbçilərin müəmmalı şəkildə geri çağırılması Qaradağlının ağır olan vəziyyətini daha da ağırlaşdırdı. Ümumiyyətlə, ətrafındakı yüksəkliklərdən ara-sıra atılan atəşlər nəzərə alınmasa, 1988-ci ilin fevralından 1992-ci ilin fevralınadək Qaradağlıya 305 dəfə düşmən hücumu olmuşdu. Bu döyüşlərin hər birində isə kənd sakinləri itkilər vermişlər. Ermənilərin Qaradağlıda insanlığa sığmayan vəhşiliklər törətməsinə şərait yaradan əsas səbəblərdən biri kəndin Azərbaycanın digər yaşayış məntəqələri ilə torpaq əlaqəsinin kəsilməsi və dörd tərəfdən mühasirəyə alınmış kəndin səmasında Azərbaycan helikopterlərinin mütəmadi atəşə məruz qaldığından hava xətti ilə də heç bi köməyin göstərilməməsi idi".



Azərbaycan tarixinə qanlı hərflərlə yazılan Qaradağlı faciəsi haqqında yazan tarixçilər bu soyqırımı ikinci Xocalı da adlandırırlar. Kəndin hər 10 sakinindən biri şəhid olub. 1992-ci ildə Xocalı faciəsindən bir neçə gün əvvəl Qaradağlıda törədilən soyqırımda 104 kənd sakini və 15 nəfər xüsusi müdafiə dəstəsinin üzvləri əsir götürülüb. Onlardan 80 nəfəri erməni cinayətkarları tərəfindən qətlə yetirilib.

Ümumilikdə, Qaradağlı soyqırımında Qaradağlı kəndi 117 övladını itirir, onlarla insan girov götürülür. Ermənilər ölənləri silos quyularına doldururlar, girovlara dəhşətli işgəncələr verirlər. Girovların əksəriyyəti geri alınsa da, çoxunun taleyi hələ də məlum deyil. Öldürülənlərdən 10-u qadın, 8-i uşaq idi. İki ailənin hər birindən 4 nəfər şəhid olub, 42 ailə başçısını itirib, 140-a yaxın uşaq yetim qalıb. İşğal nəticəsində kənddə 200 ev, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb binası, 25 çarpayılıq xəstəxana binası və digər obyektlər dağıdılıb. Kəndin 800 nəfərə yaxın sakini məcburi köçkün düşüb.

Qaradağlı faciəsini, soyqırımını gözü ilə görən şahidlər bu haqda çox dəhşətli faktlar açıqlayırlar. Onlardan biri də İlqar Hüseynovdur. O, Qaradağlı müsibətini görmüş kənd sakinlərindən biridir. İ.Hüseynov ailə üzvlərilə birlikdə 1992-ci ilin fevral ayında ermənilərə girov düşüb. O, iki ay erməni girovluğunda qalarkən olmazın müsibətlərə düçar olub. Onun dediklərindən: "Qaradağlı camaatı arasında elə bir ailə yoxdur ki, erməni vəhşiliyindən öz nəsibini almasın. Kəndimiz 1992-ci ilin fevral ayında işğal olunub. Amma hələ 1991-ci ilin sentyabrında ermənilər Qaradağlı camaatına divan tutmuşdu. Sentyabr ayının 8-də ermənilər Ağdam-Qaradağlı avtobusunu atəşə tutmuşdular. 8 nəfər yerindəcə həlak olmuş, 10-dan artıq günahsız insan ağır yaralanmışdı. 1992-ci il fevral ayının 15-də ermənilər Qaradağlını dörd bir yandan atəşə tutdular. Evlərin əksəriyyəti alova bürünmüşdü. Atışma iki gün davam etdi. Kənddə qalan 118 nəfərdən 25-i həlak olmuşdu. Dörd nəfər isə ağır yaralıydı. Gecə yaralıları da götürüb yola düzəldik. Aramızda 10 qadın və iki uşaq vardı. Ermənilər bizi təqib edirdilər. Patronumuz qurtardığı üçün onlara müqavimət göstərə bilmirdik.

Ermənilər hamını əsir götürdülər. Kişiləri qadınlardan və uşaqlardan ayırdılar və bizi ayrı-ayrı maşınlara mindirdilər. Bizi erməni qəbiristanlığına gətirdilər. Dedilər ki, 9 nəfər könüllü aşağı düşsün. Heç kim yerindən tərpənmədi. Bundan qəzəblənən erməni quldurları avtomatla maşına atəş açdılar. 10-15 nəfər yerindəcə öldü. Təxminən 20 nəfər isə ağır yaralandı. Vəziyyətin ağır olduğunu görən kənd sakinlərindən biri qaçmaq istədi. Onun bu hərəkəti ermənilərі daha da qəzəbləndirdi. Onlar bizi yenidən atəşə tutdular. Ölənlərin sayı 32 nəfərə yüksəldi. Sonra bizi Xankəndiyə apardılar. Bizi iki ay Xankəndi həbsxanasında saxladılar. Həbsxananın pəncərələri yox idi. Hər gün qar yağırdı. Şaxta insanın iliyinə işləyirdi. Girovların hamısını dizə qədər suyun içində saxlayırdılar. Bizə üç gündə bir dəfə əl boyda qara çörək verirdilər.

Ermənilər bizi gündə ən azı beş-altı dəfə döyür, müxtəlif işgəncələr verirdilər. Bir neçə nəfər işgəncələrə dözmədiyi üçün elə həbsxanadaca dünyasını dəyişdi. Armaturla vurub səkkiz nəfərin qabırğalarını qırmış, ayaqlarını sındırmışdılar. İki nəfəri isə divara çırpıb beynini partlatmışdılar. Onlar təkcə kişilərə deyil, qadınlara və uşaqlara da bu cür dəhşətli işgəncələr verirdilər. İki ay sonra Qızıl Xaç Cəmiyyətinin köməkliyi ilə bizi azad etdilər. Mənimlə birlikdə girovluqda olmuş bir neçə nəfər azadlığa çıxından sonra dünyasını dəyişdi. Həmin vaxtdan 19 il keçsə də, ermənilərin verdikləri işgəncələrin ağrısı hələ də canımdan çıxmayıb" - deyə şahid qeyd edib.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Dünya üçün yeni təhdid mənbəyi sayılan koronavirus artıq qlobal iqtisadiyyata da öz təsirini göstərməyə başlayır. Ekspertlər bildirir ki, vəziyyət indiki templə davam edərsə, yaxın tezlikdə dünya ticarəti ciddi zərbələr alacaq. Artıq indidən bu proses özünü göstərir və xüsusən ölkələrarası ticarət səviyyəsi sürətlə aşağı düşür.**

# Virusa görə Çin və İrandan idxalın azalması Azərbaycan bazarında fəsad törədə bilmədi - yerli istehsalımızın gücü və 2 milyardlıq idxalın cəmi 45 milyonu...

Koronavirusun yayılmaqda davam etməsi isə ölkələrarası ticarəti hələ yaxşı heç nə gözləmədiyini deməyə əsas verir.

Dünyanın bir parçası kimi, baş verənlər ölkəmizə də təsirsiz ötüşmür. Məsələn, artıq bəllidir ki, Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olan Çinlə məhz koronavirus üzündən ticarət həcmi fevraldan etibarən azalmağa doğru gedir. Digər qonşumuz İranla da münasibətdə eyni hal müşahidə olunur. Yeri gəlmişkən xatırladaq ki, Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrini və digər dövlətlərin təcrübələrini nəzərə alaraq, koronavirus risqinin yayılması ilə əlaqədar 2020-ci il fevralın 29-dan Azərbaycan və İran arasında dövlət sərhədlərinin iki həftəlik məhdudlaşdırıcı rejim əsasında bağlanması barədə qərar qəbul olunub. Yaranmış vəziyyət Bakı tərəfindən İranın aidiyyəti dövlət qurumları ilə müzakirə olunub və Azərbaycanın bu qərarı barədə Tehrana məlumat verilib. Bildirilir ki, Tehranla əlaqələndirilmiş şəkildə Azərbaycan ərazisində olan İran vətəndaşlarının ölkədən çıxması, İran ərazisində olan Azərbaycan vətəndaşlarının müvafiq rejim tətbiq olunmaqla ölkəyə gəlməsini təşkil etmək üçün zəruri dəhliz təmin olunur. Bundan başqa, İranda müşahidə olunan koronavirus epidemiyasına qarşı gömrük-sərhəd buraxılış məntəqələrində həyata keçirilən qabaqlayıcı tədbirlərin gücləndirilməsi, bu xəstəliyə yoluxmalarına şübhə yaranan şəxslərin vaxtında aşkarlanması və tibbi təxliyəsi üzrə Dövlət Gömrük Komitəsi tərəfindən müvafiq işlər, o cümlədən lazımi sanitar-profilaktik və dezinfeksiya tədbirləri həyata keçirilir.




İndi maraq doğuran məqamlardan biri Çin, İran kimi ölkələrdən məhsul idxalının dayanmasının Azərbaycana hansı formada təsir göstərəcəyidir. Xatırladaq ki, Çindən Azərbaycana müxtəlif adda və növdə məhsul gətirilir. Bura geyimdən tutmuş məişət avadanlıqları, elektrotexnika və digərləri daxildir. Həmin məhsullar nisbətən ucuz olması ilə seçilir. Onların idxalının dayanması ilk növbədə qiymətlərə təsir edəcək. Amma belə vəziyyətdə yerli məhsullara, xüsusən də geyimə tələbin artması da gözlənir. İrandan isə Azərbaycana daha çox qida məhsulları ixdal olunur. Düzdür, hazırda İrandan ölkəmizə gətirilən kənd təsərrüfatı və ərzaq məhsullarına qadağa qoyulmayıb. Amma koronavirus təhdidi böyüyərsə, belə qadağaların olması qaçılmaz sayılır. Lakin bu halda həmin məhsullara tələbin daha çox yerli istehsal hesabına təmin edilməsi proqnozlaşdırılır. Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi Fikrətzadə xatırladır ki, 2019-cu ildə Azərbaycan İrandan 45 milyon dollarlıq kənd təsərrüfatı və ərzaq məhsulları idxal edib: "Nəzərə alaq ki, 2019-cu ildə Azərbaycanın ümumi kənd təsərrüfatı və ərzaq məhsulları idxalı 1,9 milyard dollar olub və bunun da cəmi 45 milyon dolları İranın payına düşür. Ötən il İrandan ölkəmizə gələn məhsulların əsas hissəsini, yəni 30 faizini kartof təşkil edib. İdxalın 9 faizini xurma, 6 faizini peçenyelər, 6 faizini şəkərdən hazırlanan digər qənnadı məmulatları, 5 faizini təzə və ya qurudulmuş portağal və sair təşkil edib. İrandan idxala hər hansı bir məhdudiyyət qoyulsa, bunun bizim kənd təsərrüfatı və ərzaq bazarına ciddi təsirinin olacağını düşünmürük. Çünki ötən il İrandan bizə cəmi 54 min ton kartof gətirilib. Onu da nəzərə almaq lazımdır ki, artıq yaz mövsümündən başlayaraq bizim öz yerli kartofumuz çıxır. İndi İrandan bizə hətta kartof gəlməsə belə, bu, bazarda hər hansı bir qeyri-müəyyənlik yaratmayacaq. Çünki onsuz da bizdə bu mövsüm kartof idxalının olmadığı dövrdür. Bir də növbəti ilin qışında İrandan 40-50 min ton kartof idxalı ola bilər. İrandan ağırlıqlı olaraq bizim idxal kartofla bağlıdır. Artıq kartofun da idxal mövsümü başa çatıb, yəni nə qədər idxal edilibsə, olub, başa çatıb. İrandan kartof bir müddət gəlməsə belə, problem olmayacaq. 45 milyon dollarlıq idxalın ümumi 1,9 milyardlıq idxalın müqabilində elə də ciddi təsirinin olacağını gözləmirəm".

Digər tərəfdən ekspertlər hesab edir ki, yerli istehsalın artımı İrandan idxalı artıq tam əvəzləmək gücündədir. Elə daxili bazarı yerli məhsullarla təmin etmək də, əslində hökumət üçün prioritet sayılır. Lakin onu da nəzərə almaq lazımdır ki, koronavirus xaricdə, məsələn, Rusiyada Azərbaycan məhsullarına tələbi artırıb. Hesab edilir ki, bu şəraitdə yerli məhsulların xaricə ixracı artsa, bu artıq daxili bazarda qiymətlərdə mütləq mənada özünü göstərəcək.

**Əslində, bir sıra aqrar məhsulların, məsələn, pomidorun, xiyarın qiymətində son günlərdə qeydə alınan bahalaşma onların daha çox həcmdə Rusiyaya ixracı ilə bağlıdır. Hesab edilir ki, artıq bu məsələyə inzibati formada müdaxilə vacibdir. Əks təqdirdə, daxili bazar qiymət yüksəlişi sarıdan müəyyən problemlər yaşaya bilər.**

***Ramil QULİYEV***

# Dünya virusa görə kütləvi tədbirlərdən imtina edirsə, biz niyə düşünməyək...

**Dünyanı cənginə alan koronavirus epidemiyası caynaqlarını əksər ölkəyə uzadıb. Bütün ölkələr, o cümlədən də Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) koronavirusun lokallaşdırılması, insanların bu bəladan daha az itkilə çıxması üçün müxtəlif istiqamətlərdə tədbirlər görür. Buna baxmayaraq, yenə də bütün dünya koronavirusla bağlı kəskin həyəcan keçirir. Vəziyyət o həddə çatıb ki, artıq bir sıra beynəlxalq tədbirlər təxirə salınır.**




***Səmayə Məmmədova:*** *"Hələ ki, bu çempionatın təxirə salınması ilə bağlı planda heç nə yoxdur"*

***Şakir Ağayev:*** *"Virusla bağlı hansısa bir ciddi təhlükə ehtimal edilərsə, Azərbaycanda da beynəlxalq tədbirlərin təxirə salınması çox vacibdir"*

Yayılan məlumatlara görə, Çində başlayan, indi isə bütün dünyada sürətlə yayılan koronavirus epidemiyası kütləvi tədbirlərin təqvimini ciddi şəkildə dəyişir. Məsələ koronavirusun hava-nəfəs yolu ilə ötürülməsində və buna görə də tez yayılmasındadır. Yoluxmamaq üçün həkimlər insanların kütləvi yığıldığı yerlərə getməməyi məsləhət görürlər.

"Trend"in məlumatına görə, Beynəlxalq Valyuta Fondu və Dünya Bankı bildiriblər ki, yaxın günlərdə birgə iclasın təxirə salınması ilə bağlı müzakirələr keçirəcəklər. 2020-ci ildə birgə iclasın aprelin 13-19-da Vaşinqtonda keçirilməsi planlaşdırılırdı.

Fevralın 29-da Fransa bütün ictimai tədbirlərin ləğv olunmasını elan edib. Bu, Prezident Emmanuel Makronun iştirakı ilə Yelisey sarayında fövqəladə iclasdan sonra baş verib. Ləğv edilmiş böyük tədbirlər sırasında Paris marafonu, Kannda daşınmaz əmlak investisiyalarının sərgisi, Ansi şəhərində karnaval var. Parisdə Kənd Təsərrüfatı Sərgisi 1 gün qısaldılır.

Daha əvvəl bənzər addımı İsveçrə də atıb. Orada tədbirlər ləğv edilir. Bu tədbirlərdən ən mühümü Cenevrə avtosərgisidir.

Almaniyada, daha dəqiq desək, Berlində dünyanın ən iri turizm sərgisi ləğv edilib. Koronavirus Sars-CoV-2 ilə bağlı vəziyyətin gərginləşməsi səbəbindən Almaniyada dünyanın ən böyük İTB turizm yarmarkasının təşkilatçıları tədbirin keçirilməsindən imtina barədə qərar qəbul ediblər. Bu barədə İTB-nin rəsmi nümayəndəsi fevralın 28-də bildirib. Yarmarka martın 4-dən 8-dək Berlində keçməli idi. Orada turizm biznesi ilə məşğul olan on mindən artıq şirkətin iştirak edəcəyi nəzərdə tutulurdu. Təşkilatçılar yarmarkada 160 mindən çox daimi və yeni müsafirlərinin olmasını gözləyirdilər.

İtaliyada bir sıra mədəni tədbirlərin təşkilatçıları kitab təqdimatları və sərgilər, mətbuat konfransları və premyeralar kimi tədbirləri koronavirusun yayılmasına görə ləğv edir və ya təxirə salırlar. Virusun yayıldığı Lombardiya və Veneto vilayətlərində, Milandakı "La Skala" və Venesiyadakı "La Feniçe" daxil olmaqla bütün teatrlar, muzeylər, kitabxanalar, qalereyalar bağlanıb. Yoluxma qeydə alınmayan Liquriyanın ən gözəl turizm məkanları bağlıdır. Həftənin sonuna qədər şəhərin mərkəzi sərgi salonu olan Genuya Akvariumu və Palazzo Dukale ziyarətçiləri qəbul etmir.

Analoji tədbirlər Friuli-Venesiya-Ciulia və Trentino-Alto-Adidje bölgələrində tətbiq edilir.

Bu il İspaniyada ən populyar mobil texnologiyalar sərgilərindən biri ləğv edildi. "Mobile World Congress" adlı tədbirdən bəhs olunur. Sərgi təşkilatçıları bildiriblər ki, ziyarətçilərin təhlükəsizliyi ilə bağlı narahatlıqlar səbəbindən tədbir ləğv edilməli olacaq.

Qonşu Gürcüstanda İvan Cavaxişvili adına Tiflis Dövlət Universiteti yaz semestrinin başlanğıcını ölkənin Təhsil Nazirliyinin təlimatlarına əsasən, martın 2-dən 16-na keçirib.Yeni koronavirusun yayılması təhlükəsi ilə əlaqədar Gürcüstanın dövlət məktəblərində yaz tətillərini 2 həftə tez - martın 2-də başlamaq qərara alınıb. Tətillər martın 16-dək davam edəcək. Uşaq bağçalarında da təlimlər 2 həftə dayandırılıb. Bu müddət ərzində tədris müəssisələrində dezinfeksiya aparılmalıdır. Gürcüstan Təhsil Nazirliyi analoji tövsiyələrlə özəl məktəblərə də müraciət edib. Universitetlərə və peşə məktəblərinə yaz semestrinin başlanğıcını təxirə salmaq tövsiyə olunub.

Cənubi Koreyada idman tədbirləri ləğv edilib. 13-15 mart tarixlərində keçirilməsi planlaşdırılan Şort trek üzrə Dünya Çempionatı kütləvi yoluxma təhlükəsi səbəbindən keçirilməyəcək. K-Pop musiqi janrının vətənində konsertlər və şənliklər də ləğv edildi. BTS qrupu Seulda böyük bir konsertdən imtina etmək istəyir, qrupun pərəstişkarları üçün bu, böyük bir zərbədir.

Yaponiyada kütləvi tədbirlər ləğv edilib, məktəblərin əksəriyyəti bağlanacaq. Tokio və Osakada bu il martın ikinci yarısında baş verən ənənəvi sakura çiçəklənməsi bayramı qeyd edilməyəcək. Şənbə günündən başlayaraq martın ortasınadək Disneylend və digər attraksion parkları bağlanıb. Şimalda yerləşən Hokkaydo adasında xəstəlik hallarının artması ilə əlaqədar fövqəladə vəziyyət elan edilib.

Koronavirus təhlükəsinə görə Azərbaycanda da yerli və beynəlxalq əhəmiyyətli tədbirlər təxirə salına, yaxud vaxtı dəyişdirilə bilərmi? Bizdə bu ehtimal nə dərəcədədir?

Xatırladaq ki, 2020-ci ildə Bakı qitənin ən nüfuzlu futbol turniri olan Avropa çempionatının 4 matçını qəbul edəcək. Belə ki, Avro-2020-nin qrup mərhələsinin üç, pley-offun bir (1/8 və ya 1/4 final) görüşü Azərbaycanda təşkil ediləcək. Həmçinin, martın 25-29-da Bakıda böyüklər arasında karate üzrə 55-ci Avropa çempionatı keçiriləcək.

Bundan başqa, 2020-ci ildə paytaxtımızda Beynəlxalq Muğam Festivalının və digər beynəlxalq səviyyəli tədbirlərin də keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, Mədəniyyət Nazirliyi bütün dövlət muzeylərində həftənin ilk bazar günü keçirilən "pulsuz muzey" aksiyasını ləğv edib. "Martın 1-də muzeyləri, arxeoloji parkları və digər görməli yerləri pulsuz ziyarət etməyə imkan verən aksiya dayandırılacaq", - qurumun məlumatında deyilir. Səhiyyə Nazirliyinin sərəncamına və Nazirlər Kabinetinin qərarına əsasən, məktəb ekskursiyalarının bütün proqramları dayandırılır. Kinoteatrların bağlanması nəticəsində bir neçə bölgədə iki filmin ekranlara çıxması təxirə salınıb. "RAI News 24" kanalının məlumatına görə, artıq nümayiş etdirilən filmlərə tamaşaçı sayı da əhəmiyyətli dərəcədə azalıb.

Ölkəmizdə keçiriləcək beynəlxalq idman turnirlərinin, yarışlarının təxirə salınıb-salınmayacağı barədə Gənclər və İdman Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Səmayə Məmmədova ilə əlaqə saxladıq. S.Məmmədova "Bakı-Xəbər"ə bildirdi ki, hələlik hər hansı bir beynəlxalq tədbirin təxirə salınması haqqında heç bir söhbət getmir. "Bilirsiniz ki, hələ Avropa çempionatına çox var. Xüsusi qeyd etməliyəm ki, Səhiyyə Nazirliyi və digər aidiyyəti qurumlar tərəfindən mütəmadi olaraq ölkəmizə gələn idmançılarla bağlı yoxlamalar aparılır. Eyni zamanda, həmin idmançıların aid olduqları ölkələrlə, həmin ölkələrin fedarasiyaları ilə danışıqlar aparılır və Azərbaycana daxil olan idmançılar mütləq şəkildə yoxlanılır. Bizi qarşıda martın sonlarında keçiriləcək ən böyük lisenziya xarakterli, böyüklər arasında karate üzrə 55-ci Avropa çempionatı gözləyir. Hələ ki, karate üzrə 55-ci Avropa çempionatının təxirə salınması ilə bağlı planda heç nə yoxdur. Amma biz Avropa Karate Federasiyası, eyni zamanda, Dünya Karate Federasiyası ilə mütəmadi olaraq əlaqə saxlayırıq və bu qurumlar da bizə ölkəmizə gələcək idmançıların durumu və onların ölkələrinin vəziyyətilə bağlı hesabatlar verirlər. Əgər Avropa Karate Federasiyası və ya Dünya Karate Federasiyası bu ölkədə bu xəstəliklə bağlı hər hansı bir problemin yaşandığını və buna görə də çempionatın təxirə salınmasını tövsiyə edərsə, onda biz onu təxirə salacağıq. Amma bu gün ölkəmizə gələn idmançıların hamısı nəzarətdədir" - deyə S.Məmmədova vurğuladı.

"Novoe vremya" qəzetinin baş redaktoru, siyasi şərhçi Şakir Ağayev "Bakı-Xəbər"ə bildirdi ki, bu gün dunyanı təhdid edən və canlar alan virusa görə ölkəmizdə də müxtəlif beynəlxalq əhəmiyyətli tədbirlərin təxirə salınması doğru olardı: "Bütün dünyada Çin virusu kimi bəla tüğyan edir və bu virusdan həyatını itirənlərin sayı artır. Hətta hazırda Yaponiyada keçiriləcək Yay Olimpiya Oyunlarının təxirə salınması üçün müzakirələr aparılır. Bu gün elə fikirlər var ki, Yay Olimpiya Oyunlarını ya tamaşaçısız keçirsinlər, ya da vaxtını dəyişsinlər. Bilirsiniz, təbii ki, dünyada hər şeydən yuxarıda insan amili dayanır. Bütün ölkələrdə vətəndaşların sağlamlığı daha vacibdir, əsasdır. Azərbaycanda da hər il yüzlərlə beynəlxalq tədbir keçirilir, bura nüfuzlu idman yarışları, çempionatlar da daxildir. Bu yarışların təxirə salınıb-salınmaması haqqında hələlik heç bir rəsmi qərar yoxdur. Bu tədbirləri keçirən müxtəlif təşkilatlar bəyan edirlər ki, hələlik heç bir tədbir təxirə salınmayacaq. Çox təəssüflər olsun ki, bu virus ölkəmizdə də qeydə alınıb. Ancaq mən hesab edirəm ki, burada söhbət təkcə Azərbaycandakı vəziyyətdən getmir, bu, bütün dünya ilə bağlı məsələdir. Çünki bu yarışlara, tədbirlərə qatılmaq üçün ölkəmizə müxtəlif ölkələrdən insanlar gələcək.

**Əgər bir təhlükə olarsa, güman edirəm ki, Azərbaycan vətəndaşının sağlamlığı hər şeydən yüksək tutulacaq və nəzərdə tutulan beynəlxalq tədirlər də təxirə salınacaq. Yəni bu ehtimallar var. Biz Avropanın Fransa, Almaniya, İtaliya və İspaniya, eləcə də digər dövlətlərindən böyük dövlət deyilik, əgər onlar bununla bağlı təxirəsalma tədbirləri görürsə, biz niyə görməyək? Fikrimcə, virusla bağlı hansısa bir ciddi təhlükə ehtimal edilərsə, Azərbaycanda da beynəlxalq tədbirlərin təxirə salınması çox vacibdir".**

***İradə SARIYEVA***

**Şah İsmayıl Xətainin 1993-cü ildə Bakının Yusif Səfərov küçəsində ucaldılan heykəlinin yerinin dəyişdirilməsi ciddi müzakirə mövzusudur. Bəzi sosial şəbəkə istifadəçiləri bunun düzgün olmadığını deyirlər.**

# Xətainin Bakıdakı heykəlinin köhnə və yeni məkanları - o yerdə ki, kütləvi ziyarət üçün imkan yoxdur...



***Qiymət Məhərrəmli:** "Xətainin abidəsinin yerinin dəyişdirilməsi, onun ziyarətçilər üçün daha rahat, əzəmətli və görünən yerdə qoyulması tamamilə düzgündür"*

***Vaqif Abışov:** "Xətainin abidəsinin yerinin dəyişdirilməsi ilə bağlı uzun illər ziyalılar tərəfindən təkliflər, fikirlər səsləndirilib və artıq bu məsələ reallaşıb"*

Əslində isə Şah İsmayıl Xətainin heykəlinin yerinin dəyişdirilməsi zəruri məsələlərdən biri kimi gündəmdə idi.

Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən mətbuata verilən məlumata görə, Bakıda Şah İsmayıl Xətainin heykəli iki magistral yolun ortasında yerləşdiyindən, buranın ziyarət üçün uyğunsuz olması ilə bağlı müxtəlif müraciətlər daxil olurdu. Qurumdan bildirilib ki, bununla əlaqədar görkəmli dövlət xadimi, sərkərdə, filosof və şair Şah İsmayıl Xətainin heykəli ziyarətlər və müxtəlif tədbirlərin keçirilməsi, nəqliyyat vasitələrinin maneəsiz yaxınlaşması və vətəndaşların istirahəti üçün daha uyğun yerə köçürülüb.

O da vurğulanıb ki, heykəlin qarşısında il boyu qulluq olunacaq çiçəklər salınacaq: "Bütün bunlar görkəmli, tarixi şəxsiyyətin heykəlinin yeni səviyyədə təqdim olunmasına imkan verəcək. Digər tərəfdən, Xətainin heykəlinin götürülməsi Nizami küçəsi ilə Sabit Orucov, Mehdi Mehdizadə küçəsindən 28 May küçəsi istiqamətində yolları birləşdirən yol-nəqliyyat qovşağının yaradılmasına imkan verəcək ki, bu da həmin ərazidə olan tıxacların qarşısının alınmasına şərait yaradacaq".

Xətainin heykəlinin magistral yolun ortasında olması heykəli kütləvi ziyarət etməyə ciddi əngəllər törədirdi. Avtomobillərin yaratdığı təhlükə insanların heykəli ziyarət etməsinə əməlli-başlı mane olurdu.

Filologiya üzrə fəlsəfə doktoru, tədqiqatçı-alim Qiymət Məhərrəmli bizimlə söhbətində heykəlin yerinin dəyişdirilməsinin müsbət olduğunu və bunun abidənin kütləvi şəkildə ziyarət edilməsinə böyük şərait yaratdığını qeyd etdi.

Q.Məhərrəmli bildirdi ki, Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri olan Səfəvilər dövlətinin banisi və klassik Azərbaycan şairi Şah İsmayıl Xətainin ana dilimizin tarixi inkişafında, xalq dilindən saray dilinə, rəsmi dövlət atributuna çevrilməsində əvəzsiz rol oynadığı məlumdur. Şah İsmayıl Xətainin xatirəsinin əbədiləşdirilməsi üçün Azərbaycan dövləti tərəfindən müxtəlif addımlar atıldığını deyən alim bildirdi ki, böyük şəxsiyyətin abidəsinin yerinin dəyişdirilməsi vacib idi.

"Uzun illərdir Şah İsmayıl Xətainin abidəsinin qoyulduğu məkan müzakirə mövzusuna çevrilib və heykəlin həmin ərazidən başqa bir əraziyə köçürülməsi aktual idi. Xətainin heykəli Yusif Səfərov küçəsində, düz magistral yolun ortasında qoyulmuşdu. Bilirsiniz ki, küçədə hərəkətin intensiv olması ilə əlaqədar onun genişləndirilməsindən sonra abidə magistral yolun ortasında qalmışdı. Bunun nəticəsində də abidəni ziyarət etmək paytaxt sakinləri üçün əlçatmaz idi. Bununla bağlı kifayət qədər ictimai narazılıq vardı, ölkəmizə gələn qonaqlar çox zaman abidəni ziyarət edib qarşısına gül çələngi qoya bilmirdilər. Xətainin abidəsinin yerinin dəyişdirilməsi, onun ziyarətçilər üçün daha rahat, əzəmətli və görünən yerdə qoyulması tamamilə düzgündür. Qeyd etdiyim kimi, Xətainin heykəli magistralın tam ortasında qoyulmuşdu və bu da heykəli ziyarət etmək istəyənlər üçün problemlər yaradırdı" - deyə Q.Məhərrəmli vurğuladı.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru Vaqif Abışovun fikrincə, heykəlin yerinin dəyişdirilməsinə ehtiyac vardı. "Xətainin abidəsinin yerinin dəyişdirilməsi ilə bağlı uzun illər ziyalılar tərəfindən təkliflər, fikirlər səsləndirilib və artıq bu məsələ reallaşıb. Xətainin heykəlinin hansı səbəbdən magistral yolun ortasında qoyulması həmişə müxtəlif suallar doğurub.

Bu abidəni ziyarət etmək həm paytaxt sakinləri, həm də turistlər üçün əlçatmaz idi, insanlar abidəyə yalnız uzaqdan baxmaqla kifayətlənirdilər, ona görə də onun yerinin dəyişdirilməsi vacib idi. Çünki abidənin qoyulduğu Yusif Səfərov küçəsi maşınların intensiv hərəkət etdiyi küçədir və insanlar maşınların qorxusundan abidəni ziyarət edə bilmirdilər. Bu baxımdan hesab edirəm ki, Xətainin heykəlinin başqa bir yerə köçürülməsi, ərazidəki parka qoyulması çox düzgün addımdır. Xətainin abidəsinin uyğun bir yerə köçürülməsi o abidəni ziyarət edən sakinlərin, şagird və tələbələrin, turistlərin sayının artmasına səbəb olacaq".

Qeyd edək ki, Xətainin heykəlinin müəllifi İbrahim Zeynalov və Zakir Mehdiyevdir. Heykəl 1993-cü ildə qoyulub, 2007-ci ildə isə restavrasiya edilib.

***İradə SARIYEVA***

**Mərkəzi Bank bank sektorunun maliyyə vəziyyətinə dair hesabat yayıb. Hesabatdan məlum olub ki, 2020-ci ilin yanvar ayının sonunda ödəmə vaxtı keçmiş kreditlərin həcmi 1 milyard 306,9 milyon manat təşkil edib.**

# Problemli kreditlərdə artım yenə baş qaldırıb - bir ayda 3 faiz...




***Rəsul Cahangirli:** "İstehlak kreditləşməsinin yüksək olması problemli kreditləri artıran səbəblərdən biridir"*

Ötən ilin sonunda ödəmə vaxtı keçmiş kreditlərin həcmi 1 milyard 273,1 milyon manat idi. Beləliklə, yanvarda Azərbaycanda ödəmə vaxtı keçmiş kreditlərin (problemli kreditlər) 33,8 milyon manat artdığı məlum olub. Bu da 2,7 faizdən çoxdur.

Ödəmə vaxtı keçmiş kreditlərin cəmi kredit qoyuluşlarında xüsusi çəkisi 8,3%-dən 8,4%-ə yüksəlib. Qeyd edək ki, 2020-ci ilin yanvar ayının sonuna cəmi kredit qoyuluşları 15 milyard 413,6 milyon manat təşkil edib. Yanvar ayında kredit qoyuluşları 215 milyon manat artıb. 2019-cu ilin sonunda cəmi kredit qoyuluşları 15 milyard 298,2 milyon manat təşkil etmişdi.

Göründüyü kimi, Azərbaycanda problemli kreditlərin həcmində artım var. Doğrudur, bir il əvvəllə müqayisədə problemli hissədə azalma müşahidə edilir. Ancaq məsələ ondadır ki, dekabrın nəticələri ilə müqayisədə, yanvarda problemli kreditlər artıb.

Qeyd edək ki, ötən ilin fevralında Prezident İlham Əliyev problemli kreditlər məsələsi ilə bağlı qərar verdi. Nəticədə yaranan problem dövlət vəsaiti hesabına həll edildi. Ümid olunurdu ki, banklar bu məsələdə daha diqqətli olacaqlar. Yəni problemli kreditlərin artmasına şərait yaratmayacaqlar. Çünki bunun bir səbəbi necə gəldi istehlak kreditlərinin verilməsidir. Ancaq görünən odur ki, banklar bundan nəticə çıxarmayıblar.

Maraqlıdır, bəs ekspertlər problemli kreditlərin yenidən artmasının səbəbini nə ilə əlaqələndirirlər?

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, problemli kreditlərin həcminin yenidən artmağa doğru meyllənməsinin bir neçə səbəbi var: "Bu onu göstərir ki, banklarda vəziyyət yaxşı deyi. Düzdür, fiziki şəxslərin problemli kreditlərinin həllində dövlət dəstəyi veriləndən sonra bank sistemi bir qədər sabitlik əldə edib. Bunun sayəsində əksər bank problemli kreditlər məsələsini həll etdi. Hansı ki, bundan əvvəl bankların vəziyyəti çox kritik idi. Onların hər an bazardan çıxmaq təhlükəsi mövcud idi. Prezidentin məlum qərarından sonra ümid edilirdi ki, banklar bu fürsəti yaxşı dəyərləndirəcəklər. Çünki hansısa bir bankın bazardan çıxması nə bank sistemi, nə də maliyyə sektoru üçün arzuolunan hal deyil. Ancaq təəssüflər olsun ki, banklar bunu düzgün qiymətləndirmədilər. Bu da ondan irəli gəlir ki, hazırda bankların çoxu əsl bank fəaliyyətini tam yerinə yetirmir və yaxud da yerinə yetirmək istəmir. Banklar öz likvid vəsaitlərini səmərəli yerləşdirib gəlir əldə etmək imkanlarını dəyərləndirmirlər. Söhbət ondan gedir ki, yenə də əvvəlki kimi istehlak kreditlərinin verilməsinə önəm verirlər. Fiziki şəxslərin kreditləri ilə bağlı fərmandan sonra yenidən ölkədə istehlak kreditləşməsinin həcmində kəskin artım müşahidə olunmaqdadır.

*"Ona görə də banklar real sektora kredit ayırmalıdırlar"*

Bu, 2014-cü il ərəfəsindəki vəziyyəti xatırladır. İstehlak kreditləşməsinin yüksək olması problemli kreditləri artıran səbəblərdən biridir. Biznes kreditləşməsi isə getdikcə azalır. Bunun da əsas səbəbi onunla bağlıdır ki, banklar biznes kreditləri verməkdə maraqlı deyillər. Baxmayaraq ki, ölkədə sahibkarlığın inkişafı istiqamətində böyük tədbirlər həyata keçirilir. Təbii ki, belə vəziyyət davam etdiyi müddətdə bank sisteminin tam sağlamlaşması çətin olacaq. Problemli kreditlərin həcmi artacaq. Ona görə də banklar real sektora kredit ayırmalıdırlar. Əks təqdirdə problemlərin həlli real görünmür".

***Vidadi ORDAHALLI***

**Məlum olduğu kimi, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin və Azərbaycan Taekvondo Federasiyasının təşkilatçılığı ilə 26 fevral - Xocalı soyqırımı gününə həsr olunmuş Bakı şəhər açıq birinciliyi keçirilib.**

# Bakı şəhər açıq birinciliyində "Qala" taekvondo klubunun idmançıları ikisi qızıl olmaqla üç medal qazanıblar



49 taekvondo klub və bölmələrindən, eləcə də Rusiya və Gürcüstandan, ümumilikdə, 750-dək uşaq, yeniyetmə və gənc idmançının qatıldığı yarışda "Qala" taekvondo klubunun idmançıları da mübarizə aparıblar. 28 fevral - 1 mart 2020-ci il tarixlərində kecirilən Bakı şəhər açıq cempionatının ilk günündə "Qala" taekvondo klubunun iki idmançısı - Fatimə İsmayılova və Rəvan Məmmədazadə bütün rəqiblərinə qalib gələrək fəxri kürsüyə qalxıblar. Beləliklə, F.İsmayılova və R.Məmmədzadə I yerə, birinciliyin son günü isə klubun idmançısı Nihad Cavadlı 65 kg çəki dərəcəsində III yerə layiq görülüb.

Klubun rəhbəri, Əməkdar məşqçi Ramil Həsənovun yetirmələri, "Qala" taekvondo klubunun idmançıları Bakı şəhər açıq birinciliyində ikisi qızıl olmaqla üç medal qazanıblar.

İdmançıların məşqçiləri Ramil Həsənov və tanınmış idman ustası Fatma Əliyevadır.

***İradə SARIYEVA***

# İctimai müzakirələrdə ən çox hansı dərsliklərlə bağlı təkliflər verilib?

**Təhsil Nazirliyi 2019-cu ildə müzakirəyə çıxarılan IV və VIII sinif dərslik komplektlərində ən çox təklif və rəylərin gəldiyi dərsliklərin adını açıqlayıb.**

"Trend"in məlumatına görə, Təhsil Nazirliyinin Dərslik və nəşriyyat şöbəsinin baş məsləhətçisi Vüsalə Əliyeva deyib ki, ötən il müzakirəyə çıxarılan dərsliklərdən ən çox IV sinif "Həyat bilgisi" və VIII sinif "Azərbaycan tarixi" dərsliklərinə rəy və təkliflər gəlib. Sonrakı yerləri IV sinifdən "Rus dili" (tədris dili) və "Azərbaycan dili" (tədris dili), VIII sinifdən isə "Ümumi tarix" və "Azərbaycan dili" (tədris dili) dərslikləri tutur. Ötən ilki müzakirələrdə ən az rəy daxil olan dərsliklər isə IV sinifdən Fransız dili (əsas xarici dil), VIII sinifdən isə "Musiqi" dərslikləri olub.

Nazirlik rəsmisinin sözlərinə görə, ictimai rəyin öyrənilməsində bəzi rayonlar daha çox aktivlik göstərir: "Məsələn, 2019-cu ildə keçirilən ictimai müzakirələrdə Naxçıvan MR-ın rayonları, Salyan, Hacıqabul, Qusar və Qax rayonlarından olan müəllimlər digər bölgələrlə müqayisədə daha çox rəy və təkliflər göndərib".

V.Əliyeva qeyd edib ki, artıq 5-ci ildir ki, dərsliklər ictimai müzakirəyə buraxılır:

"Haqlı hesab edilən rəy və təkliflərin hər biri nəzərə alınıb və bundan sonra dərsliklər çapa göndərilib. Prosesin özünü doğrultduğunu düşünürəm. Hazırda I, V və IX sinif dərslikləri ictimai müzakirəyə buraxılıb".

№ 38 (4169) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

3 MART 2020-ci il

www.baki-xeber.com

# Bəşəriyyətin tamamilə məhv olması ilə bağlı həqiqət üzə çıxdı




**Almaniyadakı Maks Plank Təbiət Tarixi İnstitutunun alimləri Hindistandakı qədim insanların 74 min il əvvəl Toba supervulkanının püskürməsindən sağ çıxdıqlarını aşkar edib.**

Beləliklə, həmin fəlakətin bəşəriyyətin demək olar ki, tamamilə məhv olmasına səbəb olması ilə bağlı fikir təkzib edilib. "Milli.Az" xəbər verir ki, geniş yayılmış fəlakət haqqında həqiqəti ortaya çıxaran araşdırma "Phys.org" saytında yayımlanıb. Tədqiqatçılar Hindistanın şimalındakı Dhab ərazisində 80 min illik yataqları araşdırıb. İndoneziyada fəlakətli püskürmədən əvvəl və sonra Paleolit dövrünə aid, müasir insanın mövcudluğunu sübut edən daş alətlər tapılıb. Qeyd edək ki, Sumatra adasındakı Toba supervulkanı 6-10 il püskürməni davam etdirərək "vulkanik qış"ın başlanğıcını qoyub. Və min illər boyu iqlimin soyumasına öz töhfəsini verib. Alimlər fəlakətin "Homo sapiensin" demək olar ki, tamamilə yox olmasına səbəb olduğunu irəli sürürdü. Eyni zamanda, 60 min il əvvəl Afrikada sağ qalan populyasiyaların Asiyaya köç etdiyi iddia edilirdi. Lakin yeni nəticələr göstərib ki, superpartlayış əvvəllər düşünüldüyü kimi fəlakətli olmayıb. Hindistanda məskunlaşan insanlar fəlakətdən sağ çıxaraq alətlər yaratmağa davam edib. Yeni arxeoloji dəlillər insanların 60 min il əvvəl Afrikadan köçərək Avrasiyaya yayıldığını təsdiqləyir.

## Elan

Şəki rayonu, Oxud kənd sakini Salmanov Yafəs Loğman oğlunun adına verilmiş FORD maşının texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Hacıyeva Naibə Ümüd Əli qızının adına, Bakı şəhəri, Yasamal rayonu, M.Müşviq küçəsi, ev 14, mənzil 17 ünvanının 055816 nömrəli qeydiyyat vəsiqəsi (kupça) itdiyi üçün etibarsız sayılır.

Hacıyeva Naibə Ümüd Əli qızının adına, Xəzər rayonu, Mərdəkan qəsəbəsi, 1219 saylı bağ evinin 10261 nömrəli qeydiyyat vəsiqəsi (kupça) itdiyi üçün etibarsız sayılır.

## "Azercell" Milli Olimpiya Komitəsinin və Milli Olimpiya Komandasının məğrur tərəfdaşıdır

*"Azercell" Milli Olimpiya Komitəsi ilə əməkdaşlıq Memorandumu imzaladı*

**Fevral ayının 28-i Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi və "Azercell Telecom" MMC arasında əməkdaşlıq haqqında Memorandum imzalandı. Ölkədə olimpiya layihəsi, birbaşa idman, sağlam həyat tərzi dəyərlərinin təbliğinə və inkişafına daim dəstək olan "Azercell" 2 il ərzində, 2021-ci ilin sonunadək Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin və Milli Olimpiya Komandasının məğrur tərəfdaşı kimi çıxış edəcək.**

Memorandumlar Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, "Azercell Telekom" MMC-nin prezidenti Vahid Mürsəliyev, "Toyota Qafqaz" MMC-nin direktoru Rəşad Saracov və "Blue Planet Distribution" MMC-nin direktoru Səbinə Qazızadə tərəfindən imzalanıb.

İmzalanma mərasimində çıxış edən Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə Azərbaycan idmançılarının XXXII Yay Olimpiya Oyunlarına və XVI Yay Paralimpiya Oyunlarına hazırlığının və oyunlarda iştirakının təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncamı mötəbər idman tədbirinə hazırlığa verilən əhəmiyyətin və dəstəyin göstəricisi kimi qiymətləndirib. Dövlət və hökumət nümayəndələrinin, respublikanın idman ictimaiyyətinin tanınmış simalarının, tərəfdaşların, eləcə də media nümayəndələrinin iştirak etdiyi tədbirdə "Azercell Telekom" MMC-nin prezidenti Vahid Mürsəliyev, öz növbəsində, imzalanan tərəfdaşlıq memorandumunun mühümlüyünü vurğulayıb və Azərbaycanda Olimpiya hərəkatının inkişafında şirkətin iştirakının əhəmiyyətindən danışıb. "Biz, tərəfdaş olaraq, idman, sağlam həyat tərzinin təbliğində, o cümlədən, maarifləndirmə sahəsində böyük olimpiya ailəsinin üzvləri ilə bütün imkanlarımızı bölüşməyə hazırıq. Ümid edirik ki, belə bir addım nəinki oyunlara tamaşa edən auditoriyanın genişlənməsinə, həm də minlərlə gəncin idmanla məşğul olmasına səbəb olacaq. Ölkəmizi təmsil edəcək bütün idmançılarımıza bu məsuliyyətli yolda güclü olmağı, bayrağımızı daim ucaltmağı arzulayıram".

Olimpiya Oyunları dünyanın bütün dövlətlərinin diqqət mərkəzində olan ən mühüm və möhtəşəm idman tədbiridir. XXXII Tokio Yay Olimpiya Oyunları 24 iyul - 9 avqust 2020-ci il tarixlərində keçiriləcək.

Xatırladaq ki, hər zaman sosial layihələrin təşəbbüskarı kimi tanınan "Azercell Telekom" MMC 2014-cü ildən etibarən Uşaq Paralimpiya Komitəsinin fəaliyyətini dəstəkləyir. Bununla da şirkət sağlamlıq imkanları məhdud uşaqların və yeniyetmələrin cəmiyyətə inteqrasiyasına öz töhfəsini verir. Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## "Nar" abunəçilərinin nəzərinə!

**"Azerfon" MMC və fərdi müştərilər arasında bağlanmış** abunə müqaviləsinin müvafiq maddələrinə əsasən, 12.03.2020-ci tarixindən etibarən "White" tarifində dəyişiklik ediləcək. Daha ətraflı məlumatı nar.az səhifəsindən əldə etmək olar.





**Qoç** - Qarşınıza konkret məqsədlər qoymasanız, sürəkli narazılıq hissinə mübtəla olacaqsınız. İndi bir qədər dayanmaq, görülən işləri dəyərləndirmək imkanı var. Nə etmək lazım olduğunu dəqiqləşdirin.



**Buğa** - Yardım istəyən insana kömək edin, amma minnətdarlıq gözləməyin. Hər halda minnətdarlıq siz istəyən formada olmayacaq. Yanınızdakı insanların davranış səbəbləri dəyişkəndir və emosiyalara məruz qalıb.



**Əkizlər** - Poçt qutusunda yır-yığış edin, məktublara cavab verin, unutduğunuz insanları xatırlayın, yazışın, sualları cavablayın. Axşam saatlarında dincəlin, tələskənlikdən imtina edin, artıq hərəkətlərə yol verməyin.



**Xərçəng** - Fərqli istiqamətlərdən təzyiqlər hiss edəcəksiniz. Sizinlə bağlı başqalarının gözləntiləri, tələbləri və iddiaları çoxdur. Yaşam arealınız artıq müdafiə olunmuş məkan deyil.



**Şir** - İşlərinizdə rasional olun, hisslərinizə və emosiyalarınıza nəzarət edin. Mütləq şəkildə başa vurulması gərəkən işlərdə diqqətli olun, emosiyalara uymayın. Gözləniləndən və ehtimal olunandan daha artıq səviyyədə güzəştə getməli olacaqsınız.



**Qız** - Dəyişikliklərin mahiyyətini anlamağa çalışın. Qərarlarda və hərəkətlərdə aktiv olun. İşdə məlumatlarla fəal çalışın. Maddi məsələlərdə ehtiyatlı, düşünülmüş şəkildə davranın. Maliyyə məsələlərində tələskənliyə yol verməyin, bədxərclik etməyin.



**Tərəzi** - Baş verənlərə reaksiyanız səbatlı, təmkinli, soyuqqanlı olmalıdır. Gözəl həyata tələbat artır. Amma illüziyalara qapılmayın, təriflərə aldanmayın, vədlərin tələsinə düşməyin. Eqoist və təşəxxüslü insan təsiri bağışlamayın.



**Əqrəb** - Baş verənlərə praktiki mövqelərdən yanaşın. Yaşamın bəlirlədiyi işləri görün, çağırışlardan qorxmayın. Şanslardan yararlanın. Tələsməyin, hər işlə bir az məşğul olmayın.



**Oxatan** - Hadisələrin retro-fazaya daxil olması yaxın insanların motivasiyanı dəyişir. Özünüzdən və başqalarından izafi işlər tələb etməyin. Cari işlərin axarında qalın, heç nəyi tələb etməyin və səhv salmayın.



**Oğlaq** - Böyük dəyişikliklər hissini bu günün hadisələrinin kontekstinə sirayət etdirməyin. Məcburi fasilə və ya ləngimə sizə düşünməyə, perspektivləri dəyərləndirməyə, gözləntilər arasında seçim etməyə imkan verir.



**Dolça** - İnadkarlıq etməyin, doğru danışdığınızı hər vəchlə sübut etmək üçün çərçivələri yıxmayın. Həmsöhbətinizin dediklərini eşidin. Yollarda qəza riski artır. Gözləriniz yorula bilər.



**Balıqlar** - Çətin olsa da, rutin və cari işlərlə məşğul olun. Sönük, cansıxıcı gündür. Yanınızdakı insanlara qarşı sürəkli iddialar və tələblərlə çıxış etməyin. Konstruktiv və zəruri saydığınız işləri emosiyalar alt-üst etməməlidir.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Koronavirusa qarşı xüsusi kostyum hazırlandı

**Çinli memar Sun Dayonq koronavirusdan qorunmaq üçün xüsusi kostyum layihələşdirib.**



"Oxu.az" xəbər verir ki, kostyum qızaraq ultrabənövşəyi şüa vasitəsilə ətrafı sterilizasiya edir. İxtira "Be a Bat Man" ("Yarasa İnsan ol") adlanır. O, faktiki olaraq, bel çantası kimi, çiyinlərdə bərkidilən iki dayaqdan ibarətdir. Onların arasında bir plyonka çəkilir. Qalxanı xatırladan cihaz qızaraq ətrafındakı hər şeyi ultrabənövşəyi şüalanma ilə sterilizasiya edir. Hələlik, cihazın ideyası kağız üzərində qalır, amma memar mühəndislərin köməyilə onu reallığa çevirə biləcəyinə ümid edir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.